RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 78 (8394) CÜMƏ, 24 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Reytinq yüksəlir, nüfuz artır

2020-ci il dünya iqtisadiyyatı üçün o qədər də uğurlu il olmayacaq. Həm qlobal pandemiya ilə mübarizə, həm də neftin qiymətinin kəskin düşməsi bunu şərtləndirən mühüm amillərdir. Artıq 4 aydır ki, dünyanın əksər dövlətləri koronavirus pandemiyası ilə mübarizə aparmaqdadır. Dünyanın bu bəladan nə zaman qurtulacağı da bəlli deyil. Maraqlıdır ki, infeksiya daha çox inkişaf etmiş ölkələrdə ciddi problemlər yaradır. Avropanın böyük dövlətlərinin səhiyyə sistemi demək olar ki, çöküb. Əlbəttə ki, bu durum qarşıdakı illərdə ölkə iqtisadiyyatına ciddi mənfi təsirlərini göstərəcək.

## İnsan sağlamlığı və makroiqtisadi sabitliyin qorunması

Azərbaycan da hazırda qlobal pandemiya ilə mübarizə aparmaqdadır. Ancaq vaxtında görülən qabaqlayıcı tədbirlər bu gün öz nəticəsini göstərir. Ölkədə karantin rejiminin elan edilməsi ilə dövlət həm insan sağlamlığının, həm də makroiqtisadi sabitliyin qorunmasını təmin edir. Karantin rejimi ilə əlaqədar olaraq dövlət və özəl müəssisələrin fəaliyyətinin müvəqqəti dayandırılması da insanların sosial rifah halına mənfi təsir göstərməyib.

Çünki hər zaman müdrik və qətiyyətli qərarları ilə xalqın rifahının yüksəlməsi naminə sosial-iqtisadi paketlər qəbul edən Prezident İlham Əliyev qlobal pandemiya dövründə daha böyük və genişmiqyaslı iqtisadi-sosial paketini təqdim edərək hər kəsi sevindirdi. Maliyyə həcmi 3-3,5 milyard manat olan bu paket əsasında dövlət dəstəyi proqramları hazırlandı və işləməyən vətəndaşlara, aztəminatlı ailələrə, sahibkarlara maddi yardımlar edildi. Bu gün də proses davam etməkdədir.

Əlbəttə ki, bu, Prezident İlham Əliyevin davamlı iqtisadi islahatlarının, dövlətin qüdrətinin göstəricisidir. Onu da nəzərə almalıyıq ki, dövlət bu yardımları heç bir beynəlxalq təşkilatdan kredit almadan həyata keçirir. Əvəzində qlobal böhranla mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına da maliyyə yardımı ayırır.

## Qlobal pandemiya dövründə sosial-iqtisadi uğurlar

Təbii ki, pandemiya iqtisadiyyatın bir çox sahələrini qeyri-müəyyən müddətdə iflic edib, qlobal istehlakı daraldıb, nəticədə dünya iqtisadiyyatına və ticarətinə ağır zərbə vurulub, qlobal iqtisadi böhranın ilkin əlamətləri yaranıb. Lakin qlobal böhrandan az itki ilə çıxmaq üçün qabaqlayıcı tədbirlər görən dövlətlər daxili makroiqtisadi sabitliyi qoruya biliblər.

## Beynəlxalq təşkilatlar qlobal böhran dövründə də Prezident İlham Əliyevin reallaşdırdığı kompleks islahatları yüksək qiymətləndirirlər

Yeni ilin əvvəlindən bu günədək keçən dövrdə iqtisadi sektorda uğurlar əldə edən ölkələr o qədər də çox deyil. Ancaq ölkəmizin 3 aylıq sosial-iqtisadi göstəricilərinə nəzər yetirsək, o zaman qlobal pandemiya dövründə müxtəlif sahələr üzrə yüksəlişin də şahidi olarıq.

Təkcə 3 ayda ümumi daxili məhsul 1,1 faiz, qeyri-neft sektoru 3 faiz, qeyri-neft sənaye sektoru 23 faiz, informasiya-kommunikasiya texnologiyalar 18 faiz, dağ-mədən sənayesi 12 faiz, kənd təsərrüfatı 3,7 faiz, elektrik enerjisi, qaz-buxar istehsalı 17 faiz, yük daşımaları 7,2 faiz artıb. Həmçinin vergi və gömrük orqanlarından əlavə daxilolma 310 milyon manat təşkil edib. Bu dövrdə orta aylıq əməkhaqqı 28 faiz, orta pensiya 27 faiz artıb, orta pensiya 295 manat, yaşa görə pensiya isə 330 manata yaxındır.

Prezident İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə də dövlət başçısı yanvar-mart aylarının sosial-iqtisadi göstəricilərini yüksək qiymətləndirib. Çünki bu müddətdə həyata keçirilən sosial-iqtisadi islahatlar sayəsində qeyri-neft sektorunun yüksəlişinə, infrastrukturun müasirləşdirilməsinə, neft amilindən asılılığın azaldılmasına, sahibkarlığın inkişafına və güclü insan kapitalının formalaşdırılmasına xidmət edən mühüm addımlar atılıb.

## Azərbaycan bütün reytinqlərdə yüksəlişdədir

Son vaxtlar aparılan islahatlar nəticəsində Azərbaycanda biznes mühiti böyük dərəcədə yaxşılaşıb. Bunu bir neçə mötəbər beynəlxalq təşkilat da qeyd edir. Mart ayında dünyanın ən böyük beyin mərkəzlərindən biri olan "Heritage Foundation" tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi 2020" hesabatında Azərbaycan 16 pillə irəliləyərək 180 ölkə arasında 44-cü yerdə qərarlaşıb.

Azərbaycan builki hesabatda Asiya-Sakit Okean regionu ölkələri sırasından çıxarılaraq Avropa regionuna daxil edilib, iqtisadi azadlıq dərəcəsinə görə dünya üzrə orta göstəricidən (61.6) yuxarı, regional göstəricidən isə cəmi 0,5 bal ilə geri nəticə göstərib. Həmçinin "İqtisadi Azadlıq İndeksi 2020" üzrə Avropa regionunda 45 ölkə arasında 24-cü yerdə qərarlaşıb və regionda ən çox irəliləyən ölkələr arasında birinci yerdədir. Bundan əlavə, sözügedən indeks üzrə Azərbaycan Polşa, Belçika, İspaniya, Fransa, Türkiyə, İtaliya və bu kimi ölkələr ilə müqayisədə ön sıralarda yer tutub.

Bundan əlavə, son iki ildə iki kredit reytinq agentliyi "Standard & Poor's" və "Fitch" təşkilatlarının hesabatlarında Azərbaycanın kredit reytinqi yüksəlib.

Dünya Bankı, Davos İqtisadi Forumu və ABŞ-ın İrs Fondunun son hesabatlarında Azərbaycanın mövqeyinin yaxşılaşması bir daha onu deməyə əsas verir ki, dünyanın reytinq tərtib edən bütün mötəbər qurumları Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatların real nəticələrini qəbul edir və Azərbaycanı MDB-də ən islahatçı ölkə kimi təsbit edirlər. Beynəlxalq təşkilatların reytinqləri cənab İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü, kompleks və köklü iqtisadi islahatlara verilən beynəlxalq qiymətdir. Bütün bunlar Azərbaycanın güclü ölkə kimi beynəlxalq aləmdə nüfuzunu günbəgün artırır.

***"Azərbaycan"***

# "Sizin rəhbərlik etdiyiniz dövlətin vətəndaşı olduğumuz üçün özümüzü çox şanslı hesab edirik"

## Ölkə vətəndaşlarının Prezidentə yazdıqları məktublarda bu fikir fəxarətlə ifadə olunur

Koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması, xalqımızın sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması istiqamətində atdığı qətiyyətli addımlara görə Prezident İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən **Oqtay Həziyev** kənd sakinləri adından dövlət başçısına minnətdarlıq edərək yazır: "Hörmətli cənab Prezident, bəşəriyyətin üzləşdiyi ağır günlərdə xalqımızın sağlamlığını hər şeydən üstün tutaraq qəbul etdiyiniz yüksək səviyyəli qərarları bəyənirik və Sizinləyik. Sizə bu yolda uğurlar, xalqımıza xoş günlər arzu edirik. Siz vətənsevər, zəhmətkeş insanların əməyini, xidmətlərini hər zaman yüksək qiymətləndirdiyiniz kimi, biz də Sizin Vətənimiz, xalqımız üçün gördüyünüz işləri daim təqdir edir, uca tuturuq. Hər zaman belə uca olasınız, cənab Prezident!"

Biləsuvar rayonunun Nərimankənd kəndinin sakini **Sifeyrə Əliyeva:** "Əziz Prezidentimiz, dünyada yayılmış və insanların ölümünə səbəb olan koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısını almaq istiqamətində atdığınız və digər ölkələr üçün nümunə ola biləcək addımlarınız bizim xalqını sevən, həmişə onun yanında olan, uzaqgörən Prezidentimiz olduğunuzu bir daha göstərdi. Sizin bu tədbirlər planı ilə yanaşı, yaranmış çətin vəziyyətdə xalqımıza hərtərəfli kömək etməyinizi, aztəminatlı ailələri diqqətdə saxlamağınızı, övladlarımızın iş yerlərini itirməmək üçün gördüyünüz işləri heç vaxt unutmayacağıq. 74 yaşlı bir ana olaraq öz adımdan və 8 övladım, 41 nəvə-nəticəm adından Sizə minnətdarlığımı bildirirəm. Biz həmişə Sizin ətrafınızdayıq. Allah Sizə cansağlığı versin və bu bəladan xalqımızı qorusun!"

Laçın rayonundan məcburi köçkünlər **Süleyman Şahverdiyev, Sənani Əhmədov, Nüsrət Fərzəliyev, Mirzə Kərimov** və **Ədalət İbrahimov** yazırlar: "Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım, hər bir vətəndaşımızın həyatını düşündüyünüz üçün Sizə minnətdarıq. Ölkəmizdə yaranmış vəziyyətlə əlaqədar "Evdə qal!" çağırışınıza əməl edib evdə qaldığımız halda, Siz yorulmadan bizim sağlamlığımız üçün gərgin rejimdə işləyirsiniz. Məcburi köçkünlərə xüsusi diqqət və qayğınızın nəticəsidir ki, bizim ailələr Ağcabədi rayonunda salınmış yeni qəsəbədə evlə təmin olunmuşdur. Bundan başqa, sosial izolyasiya tədbirləri ilə əlaqədar məktəblərin bağlanmasına baxmayaraq, övladlarımız təhsildən kənarda qalmır, televiziyalarda təşkil olunan onlayn dərslərdən yararlanırlar. Əməkhaqlarımız da vaxtında köçürülür. Bunun üçün Sizə dərin təşəkkürümüzü bildiririk. Sizə gərgin və yorulmaz işlərinizdə uğurlar arzulayırıq. Allah yardımçınız olsun. Allah tezliklə ölkəmizi koronavirus bəlasından xilas etsin!"

Ağstafa rayonunun sakini **Zahid Sultanov:** "Hörmətli cənab Prezident, ölkəmizdə yeni növ koronavirus infeksiyasının genişlənməsinin qarşısının alınması məqsədilə həyata keçirdiyiniz müvafiq profilaktik tədbirlər, əhalinin aztəminatlı təbəqəsinin sosial təminatının yaxşılaşdırılması, o cümlədən pandemiyadan zərər görən sahibkarlara maliyyə dəstəyi verilməsi, insanları sosial həmrəyliyə dəvət etməyiniz dövlət-vətəndaş birliyinin əsl təzahürüdür. Dövlətimiz bütün imkanlarını pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində səfərbər edib. Məhz buna görə də inanırıq ki, ölkəmiz bu bəladan minimum itkilərlə çıxacaq və Sizin rəhbərliyinizlə respublikamız yenidən bütün sahələrdə əvvəlki inkişaf yolunu uğurla davam etdirəcək.

*Ardı 2-ci səh.*

# Pandemiyadan zərər çəkən sahibkarlıq subyektlərinə vergi güzəştləri olunacaq

"Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamının icrası çərçivəsində qəbul edilmiş Tədbirlər Planı üzrə aparılan işlər davam etdirilir.

Nazirlər Kabineti tərəfindən qəbul edilmiş Tədbirlər Planının istiqamətlərindən biri də ölkədə pandemiyadan zərər çəkmiş sahibkarlıq subyektlərinə dəstəyin göstərilməsidir. Bu məqsədlə Vergi Məcəlləsində və bir sıra qanunvericilik aktlarında dəyişikliklərlə bağlı təkliflər hazırlanıb. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi siyasəti Baş İdarəsinin rəisi Samirə Musayeva həmin təkliflər barədə şərh verib.

Bildirib ki, ölkədə pandemiyadan zərər çəkmiş sahibkarlıq subyektlərinə vergi sahəsində müvafiq təşviqlərin verilməsi nəzərdə tutulur. Bununla bağlı Vergi Məcəlləsində dəyişikliklərə dair qanun layihəsi hazırlanıb. Dəyişikliklər sahibkarlıq subyektləri, biznes icmaları və aidiyyəti dövlət orqanlarının nümayəndələri ilə geniş müzakirə edilib, biznesin tələbləri və istəkləri nəzərə alınıb və müvafiq qanun layihəsi Milli Məclisə təqdim olunub. Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun bütövlükdə pandemiyadan zərər çəkən bir sıra fəaliyyət sahələrinə genişhəcmli təşviqləri ehtiva edir.

*Ardı 7-ci səh.*



# Biləsuvarda çiyid səpini mütəşəkkil keçir

Biləsuvar rayonunun pambıqçıları zəngin təcrübəyə, yaxşı ənənələrə malikdir. Torpağa, pambıq bitkisinə nümunəvi qulluq nəticəsində hər il yüksək məhsul götürürlər.

Hər hektardan daha çox "ağ qızıl" əldə etdiklərinə, respublikada məhsuldarlıq sahəsində rekord miqdarda göstəricilərə nail olduqlarına görə Sakit Soltanov birinci, Fazil Musayev ikinci dərəcəli "Əmək" ordeni ilə təltif olunmuş, Lətif Cəfərov isə "Tərəqqi" medalına layiq görülmüşdür.

*Ardı 7-ci səh.*

# İşğalçılıq siyasətinin növbəti ifşası

## Ermənistanın dünyanı aldatmağa xidmət edən yalançı manevrlərinə yer qalmayıb

Ermənistan Dağlıq Qarabağ probleminin dinc müstəvidə həlli məqsədi ilə ona verilən şansı hələ də lazımınca dəyərləndirmir. Belə ki, bu günlərdə Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun keçirdiyi videokonfrans zamanı Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın Azərbaycan ərazilərinin işğaldan azad edilməyəcəyini bildirməsi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi istiqamətində aparılan danışıqlara xələl gətirməkdədir.

Xatırladaq ki, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov aprelin 21-də A.M.Qorçakov adına İctimai Diplomatiyaya Dəstək Fondunun üzvlərinin "dəyirmi masası"nda çıxışı zamanı BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qətnamələrinə toxunmuş və Ermənistan-Azərbaycan münaqişəsinin mərhələli həllinə dair plan və təkliflər barədə danışmışdı.

Beləliklə, Ermənistan yüksək siyasi səviyyədə növbəti dəfə əsl niyyətinin danışıqlar vasitəsilə münaqişənin həlli deyil, Azərbaycan ərazilərinin qanunsuz işğalının davam etdirilməsi olduğunu nümayiş etdirdi. Belə bir vəziyyətdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi müstəvidə həll ehtimalı artır ki, bu da ermənilər üçün əsl fəlakət anlamına gəlir. Çünki Ermənistan müzəffər Azərbaycan Ordusunun ən qısa zaman kəsiyində işğal altındakı əraziləri azad etmək iqtidarında olmasını hələ 2016-cı ilin aprel döyüşlərində aydın gördü. Elə bu səbəbdən də hazırda təcavüzkarın ən böyük qorxusu Azərbaycanın zəbt olunmuş ərazilərini güc yolu ilə qaytara biləcəyi ilə bağlıdır.

*Ardı 7-ci səh.*

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

Əvvəli 1-ci səh.

Cənab Prezident, bu çətin günlərdə həyata keçirdiyiniz tədbirlərə, insanlara göstərdiyiniz xüsusi diqqət və qayğıya görə Sizə dərin təşəkkürümü bildirirəm".

### "Sizin qərarınızı biz ağsaqqallar dəstəkləyirik"

Xəzər Rayon Ağsaqqallar Şurasının üzvü, təqaüdçü **Altay Mansurov:** "Çox hörmətli möhtərəm Prezident, Xəzər rayonunun bütün ağsaqqalları və sakinləri Sizin apardığınız daxili və xarici siyasəti daim dəstəkləyirlər. Hazırda dünyanın əksər ölkələrini bürüyən koronavirus pandemiyası bizim ölkəmizdən də yan keçməmişdir. Sizin rəhbərliyinizlə vaxtında aparılan qabaqlayıcı profilaktik tədbirlər respublikada xəstəliyin insanlar arasında kütləvi şəkildə yayılmasının qarşısını almışdır. Bütün bu tədbirlər vətəndaşlarımızın sağlamlığının təhlükəsizliyinə yönəldilmişdir. Eyni zamanda yaranmış bu gərgin vəziyyət tərəfinizdən düzgün qiymətləndirilərək vətəndaşların sosial vəziyyəti də nəzərə alınmışdır. Bu çətin günlərdə qəbul edilmiş bütün qayda-qanunlar hər bir şəxs tərəfindən icra edilərsə, xəstəlik bəlası bizdən yan keçər. Sizin sərəncamlarınızı və qərarlarınızı biz ağsaqqallar dəstəkləyirik və hər bir kəsi o qaydalara riayət etməyə çağırırıq. Bu işlərə görə biz Sizə çox minnətdarıq. Biz əminik ki, həmişə olduğu kimi, xalqımız Prezidentimizin rəhbərliyi altında bu gözəgörünməz düşmən üzərində qələbə qazanacaq. Möhtərəm cənab Prezident, ulu Tanrıdan Sizə, ailə üzvlərinizə möhkəm cansağlığı, xoşbəxtlik, işinizdə yeni uğurlar, xalqımıza firavan həyat diləyirəm. Tanrı Sizi qorusun!"

Biləsuvar rayonundan Əməkdar həkim **Fail Məmmədov:** "Əziz və hörmətli Prezident, dünyanı bürümüş koronavirus pandemiyasına qarşı respublikamızda Sizin tərəfinizdən həyata keçirilən qabaqlayıcı tədbirlər ölkəmizin bütün əhalisi tərəfindən çox böyük razılıqla qarşılanır. Məhz Sizin məqsədyönlü tədbirləriniz nəticəsində xalqımız bu bəladan uğurla qorunur. Sevinirik ki, Vətənimiz Azərbaycan hazırda bu pandemiyadan ən az zərər çəkən ölkələr sırasındadır. Bu, bir daha göstərir ki, Azərbaycan Prezidenti həmişə öz xalqının yanındadır, onun sağlamlığı dövlət başçısı üçün ən prioritet məsələdir. Sizin biz həkimlərin fədakar əməyinə verdiyiniz yüksək qiymət, atdığınız sosialyönümlü addımlar ziyalılar, tibb işçiləri və bütün əhali tərəfindən hədsiz razılıq hissi ilə qarşılanır. Sizin bu qətiyyətli addımlarınız xalqımızın ağır fəsadlar törədə biləcək pandemiyadan tezliklə və az itkilərlə çıxacağına böyük əminlik yaradır. Möhtərəm Prezident, Azərbaycan xalqı Sizin kimi müdrik Prezidenti ilə fəxr edir. Siz buna layiqsiniz. Siz, sözün həqiqi mənasında, hər bir Azərbaycan vətəndaşının Prezidentisiniz. Biz ziyalılar Sizin ən yaxın silahdaşınız, xalqımızın sevimlisi Mehriban xanım Əliyevanın da yorulmaz fəaliyyətini yüksək qiymətləndiririk. İnanırıq ki, Sizin qətiyyətli addımlarınız tezliklə öz bəhrəsini verəcək, xalqımız bu böyük bəladan da uğurla çıxacaqdır. Səhiyyə sahəsində uzun illər çalışan bir insan kimi şəxsən öz adımdan və bütün ailə üzvlərimin adından Sizə bir daha minnətdarlığımı bildirirəm. Qoy uca Tanrı xalqımızın rifahı naminə daim Sizi qorusun!"

Xəzər Rayon Ziyalılar Cəmiyyətinin sədri, Xəzər Rayon Ağsaqqallar Şurasının üzvü, tarix elmləri doktoru, professor **Təvəkkül Səlimov:** "Əziz Prezidentimiz, Vətənimizin Sizin birbaşa adınız və fəaliyyətinizlə bağlı olan şanlı tarixi illəri ərzində Azərbaycan xalqının möhtəşəm yüksəlişi və inkişafı Sizin üçün həmişə başlıca amal və müqəddəs bir vəzifə olub. Bu gün zaman bəşəriyyəti və onun bir parçası olan Azərbaycan xalqını koronavirus xəstəliyi ilə sınağa çəkərkən bizim hər birimiz bir daha bu həqiqətin şahidi oluruq. Bütün dini kitablarda günahsız bir insanı ölümdən qurtarmaq müqəddəs və təqdir olunan əməl sayılır. Dünyada tüğyan edən koronavirus xəstəliyi ilə əlaqədar atdığınız addımlar, o cümlədən xəstəliyə qarşı mübarizə tədbirləri ilə bağlı dəstək fondunun yaradılması, mövcud tibb müəssisələrinin qısa müddətdə beynəlxalq standartlara uyğunlaşdırılması, tezliklə modul tipli müasir xəstəxanaların istifadəyə veriləcəyi, müasir tibbi avadanlıq və ləvazimatların alınması, fədakar və qəhrəman səhiyyə işçilərinin əməkhaqlarının artırılması, pandemiya ilə əlaqədar işə gedə bilməyən əməkdaşların əməkhaqlarının saxlanılması, ölkə üzrə imkansız ailə və şəxslərə yardımların göstərilməsi, sahibkarlara dövlət dəstəyinin verilməsi, əhalinin sağlamlığının qorunması üçün karantin rejiminin tətbiqi, xüsusən də Sizin müntəzəm olaraq xalqa müraciət və çağırışlarınız insanlar tərəfindən çox böyük rəğbət, əsl humanizm nümunəsi kimi qarşılanır. Bütün bunlar çətin zamanlarda sosial həmrəyliyin cəmiyyət üçün nə qədər böyük əhəmiyyət daşıdığını bir daha təsdiq edir. Bütün bunlar Sizin 2003-cü ildə prezident seçkiləri ərəfəsində söylədiyiniz "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" sözlərinizin tam mənası ilə sübutudur. Möhtərəm Prezidentimiz, biz - Xəzər rayonunun ziyalıları, habelə rayonumuzun qədirbilən və Sizi çox sevən sakinləri həmişə olduğu kimi, bu çətin günlərdə də Azərbaycanımız yolunda atdığınız bütün addımları rəğbətlə qarşılayır, xəlqi mahiyyət daşıyan bu işlərdə Sizləri dəstəkləyirik. Hər şeyə görə minnətdarıq. Var olun, sağ olun".



# "Sizin rəhbərlik etdiyiniz dövlətin vətəndaşı olduğumuz üçün özümüzü çox şanslı hesab edirik"

## Ölkə vətəndaşlarının Prezidentə yazdıqları məktublarda bu fikir fəxarətlə ifadə olunur

### Xalqımız bu çətinliyi də geridə qoyacaq

İsmayıllı rayonunun Basqal qəsəbəsindən **Nərgiz Əsədli:** "Hörmətli cənab Prezident, Sizə bu ölkənin gənc vətəndaşı olaraq təşəkkür dolu məktubumu çatdırmaq istəyirəm. Bütün dünyanın birlikdə mübarizə apardığı bu gizli düşmənlə qarşı-qarşıya qaldığımız bir zamanda xalqımızın yanında olduğunuz üçün şəxsən öz adımdan Sizə böyük minnətdarlıq hisslərimi bildirirəm. Sizin uğurlu tədbirləriniz nəticəsində xalqımız bu çətinliyi də geridə qoyacaq. Əminliklə bildirirəm ki, hər bir vətəndaş Sizə inanır, güvənir və Sizi öz yanında hiss edir. Biz birlikdə güclüyük və Sizinlə güclüyük. Yaxşı ki, bizim rəhbərimiz Sizsiniz. Hər zaman "İlhamla irəli"yə addımlamağa hazırıq. Uca Yaradan Sizi, ailənizi və xalqımızı qorusun. Sağ olun".

Şəki şəhərinin sakini **Zəminə Rəsulova:** "Möhtərəm cənab Prezident, Sizə və Mehriban xanım Əliyevaya həm öz adımdan, həm də bütün Şəki sakinləri adından dərin minnətdarlığımı bildirirəm. Bu gün bütün dünya məlum dəhşətli pandemiya ilə mübarizə aparır. Hər gün müxtəlif ölkələrdə bu pandemiya səbəbi ilə minlərlə ölüm qeydə alınır. Azərbaycanda hələ heç bir yoluxma halı qeydə alınmamışdan əvvəl bu virusun qarşısını almaq məqsədilə məhz Sizin uzaqgörən siyasətiniz sayəsində yüksək təhlükəsizlik tədbirləri görüldü, xüsusi karantin rejimi tətbiq edildi. Məhz Sizin və Mehriban xanımın sayəsində bu gün Azərbaycanda bu virusa yoluxma və ölüm sayı, şükürlər olsun ki, çox azdır. Möhtərəm Prezident, Siz xalqın rifahını, sağlamlığını qorumaq məqsədilə müxtəlif göstərişlər verdiniz. Bütün bunlara görə biz Sizə minnətdarıq. Sizə və ailənizə möhkəm cansağlığı arzu edirəm".

Bakı şəhərinin Nizami rayonundan **Roza Səmədova, Elnur Qəniyev, Vahid Quliyev** və **Musa Həsənli** yazırlar: "Əziz Prezidentimiz, koronavirusla mübarizədə xalqımızı qorumaq üçün gördüyünüz səmərəli qabaqlayıcı tədbirləri alqışlayır, Sizə uzun ömür, möhkəm cansağlığı, işlərinizdə uğurlar diləyirik. Çox sağ olun ki, bu çətin günlərdə xalqa dəstək olursunuz. Aztəminatlı ailələrə 190 manat birdəfəlik ödəmənin verilməsi ilə əlaqədar yeni sosial paketin təsdiq edilməsi təqdirəlayiqdir. Siz bununla bir çox işsiz ailənin evində ocağın alovlanmasına, qazanın qaynamasına, bir sözlə, onların xoş güzəranına səbəb oldunuz. Sizə və ailənizə daim xoş günlər, evinizə bol ruzi-bərəkət arzulayırıq. Ulu Tanrı Sizi daim var eləsin, cənab Prezident!"

Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Naxışnərgiz kəndindən **Qəzənfər Qurbanov** yazır: "Hörmətli cənab Prezident, Sizin sayənizdə xalqımızın təhlükəsizliyi və yaşayışı yüksək səviyyədədir. Hansı bəla gəlsə də, xalqımız yenə də Sizin sayənizdə rahat günlərini yaşayır. Dünyanı bürüyən koronavirus pandemiyasına qarşı əvvəlcədən qəbul etdiyiniz qərarlara görə itkilərimiz başqa ölkələrlə müqayisədə dəfələrlə azdır. Ölkəmizdə bu sahədə əldə olunan müsbət nəticələrə görə şəxsən öz adımdan və ailə üzvlərimin adından Sizə təşəkkürümü bildirirəm".

Bakı şəhərinin Səbail rayonundan **Əli Hümbətov:** "Hörmətli cənab Prezident, bəşəriyyəti çənginə almış koronavirusla mübarizədə dünyanın aparıcı dövlətləri belə böyük çətinliklərlə üzləşiblər. Sizin müdrik və uğurlu siyasətiniz nəticəsində atılmış addımlar və görülmüş qabaqlayıcı tədbirlər sayəsində COVID-19-un ölkəmizdə geniş yayılmasının qarşısı alındı. Möhtərəm cənab Prezident, işsiz vətəndaşlara birdəfəlik ödəmələrin verilməsi və yaşı 65-dən yuxarı şəxslərə evdə xidmət göstərilməsi bir daha nümayiş etdirdi ki, sosial müdafiəyə ehtiyacı olan şəxslər dövlətin himayəsindədirlər. Ümid edirik ki, bütün dünyanı çənginə alan xəstəlikdən tezliklə qurtulacağıq. Bir vətəndaş olaraq hamımız karantin qaydalarına, qoyulmuş qadağalara sonadək riayət etməliyik. Çünki yalnız bu yolla öz sağlamlığımızı qoruya bilərik. Cənab Prezident, Sizə dərin ehtiramımızı qəbul etməyinizi xahiş edirik".

Bakı şəhərinin Suraxanı rayonunun Bülbülə qəsəbəsindən **Orxan Qasımov:** "Hörmətli cənab Prezident, koronavirusun dünyanı bürüdüyü bir zamanda Allahdan Sizə və xalqımıza səbir diləyir, tezliklə bu virusun aradan qalxmasını arzulayıram. Dualarımız daim Sizinlədir. Belə bir çətin zamanda xalqımızın yanında olduğunuza görə Sizə dərin minnətdarlığımı bildirirəm. Biz qaydalara əməl edərək evdə qalmağın bəhrəsini tez bir zamanda görəcəyik. Artıq əldə edilən nəticələr də ümidvericidir. Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkəmizə əmin-amanlıq və firavanlıq arzulayıram".

Bakı şəhərinin Yasamal rayonunun sakini **Qəhrəman Məmmədov:** "Zati-aliləri möhtərəm cənab Prezident, məqsədyönlü və düzgün siyasi addımlarınız təqdirəlayiqdir. Hər bir Azərbaycan vətəndaşı kimi, mən də özümə borc bildim ki, Sizə təşəkkür edim. Bütün dünyanı bürümüş COVID-19 pandemiyası Sizin əzmkarlığınız və vaxtında verilmiş düzgün qərarlarınız sayəsində bu gün ölkəmizdə digər ölkələrlə müqayisədə nəzərəçarpacaq qədər fərqlidir. Siz həmişə xalqını düşünən və onun rifahı naminə gecə-gündüz səy göstərən, bütün dünya dövlətlərinə nümunə olacaq lidersiniz. Allah Ümummilli Liderimiz, dahi şəxsiyyət Heydər Əliyevə rəhmət eləsin. Ümummilli Liderimizin aforizmə çevrilmiş, Azərbaycan mövcud olduqca hər bir azərbaycanlının şərəflə işlədə biləcəyi, bütün bir tarixi özündə cəmləyən kəlamı var - "Mən fəxr edirəm ki, azərbaycanlıyam". Bəli, möhtərəm cənab Prezident, bu gün mən azərbaycanlı olmaqla yanaşı, fəxarət hissi keçirdirəm ki, mənim Sizin kimi Prezidentim var. Sizə cansağlığı, uzun ömür arzulayıram. Allah Sizi daim var eləsin!"

### Azərbaycanda görülən tədbirlər səmərəlidir

Bakı şəhərinin Xəzər rayonunun Binə qəsəbəsindən **Çinarə İsmayılova:** "Əziz Prezidentimiz, dünyanı çənginə alan koronavirusun ölkəmizə zərərinin minimuma endirilməsi üçün görülən tədbirlər Sizin hər bir azərbaycanlının Prezidenti olduğunuzu sübut edir. "Taclı virus" adlandırılan COVID-19 infeksiyasının dünyanın ən qüdrətli dövlətlərində ciddi tələfatlara səbəb olaraq hökmdarlıq etdiyi halda, ölkəmizə ciddi ziyan vura bilməməsi bir daha göstərdi ki, Azərbaycanda görülən tədbirlər səmərəlidir. Bu da ölkəmizin əmin əllərdə olduğunu hər bir Azərbaycan vətəndaşına nümayiş etdirir, xalqımızı qürurlandırır. Cənab Prezident, hər bir vətəndaşın qayğısına qalaraq ölkəmizin inkişafı, xalqımızın rifahı üçün yorulmadan çalışdığınız üçün Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Tanrı Sizi, Mehriban xanımı və bütün ailə üzvlərinizi qorusun!"

"Bakı Telefon Rabitəsi" MMC-nin mühəndisi **İmadəddin Hüseynov:** "Möhtərəm cənab Prezident, bəşəriyyəti çənginə almış koronavirusla mübarizədə dünyanın aparıcı dövlətləri belə böyük çətinliklərlə üzləşib. Sizin müdrik və uzaqgörən siyasətiniz, həyata keçirilən qətiyyətli və qabaqlayıcı tədbirlər sayəsində xalqımızın bu bəladan az itkilərlə çıxmasına zəmin yaradılıb. Azərbaycanda koronavirusla mübarizədə qabaqlayıcı tədbirlər gördüyünüzə görə Sizə təşəkkürümü bildirirəm. Ölkəmizdə hələ COVID-19 infeksiyasına yoluxma baş verməmişdən əvvəl Sizin tapşırıq və göstərişinizlə dezinfeksiya işlərinə başlanıldı. Vaxtında həyata keçirilən sosial təcrid və preventiv tədbirlər baş verə biləcək fəlakətin qarşısını alaraq pandemiyanın geniş vüsət almasını önlədi, Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Dünyanın inkişaf etmiş dövlətlərinə örnək olacaq bu addımlarınız xalq tərəfindən yüksək qiymətləndirilir. Bir daha müstəqil Azərbaycanımız naminə gördüyünüz mühüm işlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Bu çətin günlərdə Sizə və ailənizə cansağlığı, yeni uğurlar arzulayıram".

Bərdə rayonunun sakini **Vüqar Şadlinski:** "Hörmətli cənab Prezidentimiz, Sizi bütün bərdəlilər adından salamlayıram. Bütün dünyanın qarşısında aciz qaldığı pandemiyaya ilə mübarizədə atdığınız qətiyyətli və humanist addımlar xalqın Sizə olan sevgisini və inamını daha da artırdı. "Biz birlikdə güclüyük!" çağırışınız xalqımızı həmrəyliyə səslədi. Buna görə də Sizin rəhbərliyinizlə Azərbaycan dünya dövlətlərinə nümunə olacaq bir model, bir yanaşma göstərə bildi. Bu gün Bərdədə imkansız ailələrə əl tutmaq, yardım etmək bir hərəkata çevrilib. Buna görə də bütün bərdəlilərin Sizə olan minnətdarlığını çatdırıram. Tanrı Sizi, ailənizi, Azərbaycan xalqını və dövlətini qorusun!"

Bakı şəhərinin Səbail rayonundan **Xəlil Nurəliyev:** "Çox hörmətli və əziz Prezidentimiz, Siz Ümummilli Liderimiz Heydər Əliyevin siyasi məktəbinin layiqli yetirməsi, onun zəngin təcrübəsindən yararlanan müdrik dövlət başçısısınız. Sizin rəhbərliyinizlə Azərbaycan dünyanın ən qüdrətli dövlətləri sırasına yüksəlmiş, beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. Siz dünyanın koronavirus pandemiyası ilə üzləşdiyi bir vaxtda xalqımızı bu bəladan qorumaq üçün mümkün olan hər şeyi edir, Azərbaycan xalqının sağlam və xoşbəxt yaşaması üçün çalışırsınız. Buna görə də Azərbaycan xalqı Sizinlədir. Mən və ailə üzvlərim Sizə cansağlığı, uzun ömür, yeni nailiyyətlər arzulayırıq. Allah Sizi və ailənizi qorusun! Azərbaycanın daha gözəl günləri hələ qabaqdadır".

Samux rayonunun sakinləri **Kəmalə Xəlilova, Bəsti Orucova** və **İradə Həsənova** yazırlar: "Hörmətli cənab Prezidentimiz, "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" sözləriniz indiyədək xalqımızın yaxşı yaşaması naminə gördüyünüz işlərdə öz təsdiqini tapıb. Bu günlərdə koronavirusla bağlı həyata keçirdiyiniz tədbirlərlə xalqa sevginizin nə qədər böyük olduğunu bir daha göstərdiniz. Ümumbəşəri bəla olan koronavirusun qarşısında dünyanın ən inkişaf etmiş dövlətlərinin aciz qaldığı bir vaxtda Siz xalqımızı epidemiyanın ağır nəticələrindən qoruyursunuz. Bu çətin günlərdə ölkəmiz üçün vacib sahələrin inkişafdan qalmamasına maksimum nail olursunuz. İnşallah, bu çətin günlər də geridə qalacaq, Azərbaycanımız hələ çox gözəl günlər yaşayacaq. Biz samuxlular əminik ki, Sizin rəhbərliyinizlə bu ağır günlərdən də qalib çıxacağıq. Ulu Tanrı Sizi qorusun. Bir vətəndaş olaraq daim Sizi dəstəkləyirik. Allah Sizi və gözəl ailənizi qorusun. Allaha əmanət olun!"

### "Vətənpərvər Prezidentimizlə fəxr edirik"

Sabirabad rayonunun Qalağayın kəndindən **Səlminaz Novruzova:** "Hörmətli cənab Prezidentimiz, mən Qalağayın kəndinin 65 yaşlı sakiniyəm, 3 övladım, 6 nəvəm var. Ulu Öndərimiz Heydər Əliyevin Vətənimizin inkişafı üçün çəkdiyi zəhməti hər zaman yüksək qiymətləndirmişəm və onu dəstəkləmişəm. Heydər Əliyev məktəbi keçmiş layiqli bir davamçı kimi Sizin də fəaliyyətinizi yüksək qiymətləndirirəm. Mən də, övladlarım da Sizin kimi vətənpərvər Prezidentimizin olması ilə fəxr edirik. Yaşadığımız bu çətin günlərdə Sizin uzaqgörən siyasətiniz nəticəsində ölkəmiz qorxulu virusdan daha az əziyyət çəkdi. Bu, Sizin sayənizdə oldu. Biz bu günlərdə çətinlik hiss etmədik, rahat həyatımıza davam edirik. Xalqımız bu rahatlığa görə Sizə minnətdardır".

Bakı şəhərinin Binəqədi rayonunun sakini **İlham Qayıbzadə:** "Hörmətli cənab Prezident, Siz bu ağır günlərdə istirahət demədən, gecə-gündüz demədən çalışaraq vətəndaşların qayığısa qalırsınız, onlara hərtərəfli kömək göstərirsiniz. Sizi daim yanında hiss edən qədirbilən xalqımız Sizi ən yaxın dostu hesab edir. Mən də bu ölkənin bir vətəndaşı kimi, Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Bütün dünyanın səfərbər olduğu koronavirus pandemiyasına qarşı ölkəmizdə görülən tədbirlər, o cümlədən yeni xəstəxanaların tikilməsi, əhaliyə edilən güzəştlər, maddi təminatlar, humanitar yardımlar Sizin xalqımıza dayaq olduğunuzu göstərir. Sizin "Biz birlikdə güclüyük!" ifadəniz bizə qüvvət verir və bizi əmin edir ki, çox keçməz, Sizin yorulmaz fəaliyyətiniz sayəsində bu mübarizədən birlikdə üzüağ çıxacağıq. Cənab Prezident, pandemiyanın ölkəmizdə yayılmasına qarşı atdığınız addımlara görə Sizə səmimi qəlbdən təşəkkürümü bildirir, gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram".

Şirvan şəhərindən sahibkar **Qurbanxan Dəmirov:** "Möhtərəm cənab Prezident, ölümcül virusa qarşı Sizin misilsiz idarəçiliyinizlə mübarizə tədbirləri aparılır. Bu bəlaya qarşı tək dövlət strukturları deyil, cəmiyyətin bütün üzvləri fəal mübarizlik göstərməlidirlər. Təbii ki, bu işdə mübariz həkimlərin və polis orqanlarının xidməti təqdirəlayiqdir. Mən bu gün həkimlərin fəaliyyətini Böyük Vətən müharibəsi illərinə bənzətmək istərdim. Çünki ən çox risk altında olan həkimlərdir. Sizin mərhum ananız Zərifə xanım da həkim olub, neçə-neçə insanın gözlərinə işıq verib. Allah ona qəni-qəni rəhmət eləsin, qəbri nurla dolsun. Amin. Koronavirusa qarşı görülən qabaqlayıcı tədbirlər göz qabağındadır. Ölüm və yoluxma səviyyəsi aşağıdır, sağalanların sayı gündən-günə artır. Cənab Prezident, məhz Sizin sayənizdə bu gün ölkəmizdə tam ictimai sabitlik hökm sürür, insanların sağlamlığı qorunur. Odur ki, Sizə dərin minnətdarlığımı bildirir, gələcək fəaliyyətinizdə bol-bol uğurlar arzu edirəm. İnşallah, bu bəladan da qurtulacağıq. Tanrı Sizi qorusun!"

Balakən rayonundan **Aytac Balagözova:** "Hörmətli cənab Prezident, mən ali təhsilli Azərbaycan gənci olaraq, son vaxtlar bütün dünyanı aciz vəziyyətdə qoyan koronavirus bəlası ilə mübarizədə bizlər üçün böyük əzmlə çalışmağınızın bir daha şahidi oldum. Heç də təsadüfi deyil ki, Sizin doğru zamanda qəbul etdiyiniz düşünülmüş qərarları hazırda dünyanın inkişaf etmiş əksər ölkələri özlərinə nümunə götürürlər. Azərbaycan xalqı bu çətin və keşməkeşli yolda yalnız Sizə arxalanır. Sizin rəhbərlik etdiyiniz dövlətin vətəndaşı olduğum üçün özümü çox şanslı hesab edirəm".

## Naxçıvan Muxtar Respublikasında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası ərazisində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsü"nün 1.46.5-ci yarımbəndində göstərilmiş 1,0 (bir) milyon manat Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" 1999-cu il 13 fevral tarixli 102 nömrəli, "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 12 mart tarixli 116 nömrəli və "Faydalı qazıntı ehtiyatlarının təsdiq edilməsi və silinməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2003-cü il 23 oktyabr tarixli 973 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli 613 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 13 fevral tarixli 102 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 85; 2003, № 10, maddələr 546, 582; 2007, № 8, maddə 769; 2008, № 3, maddə 174, № 8, maddə 719, № 9, maddə 798; 2014, № 2, maddə 112) ilə təsdiq edilmiş "İstifadəyə verilən yer təki sahələri haqqında geoloji informasiyanın və faydalı qazıntı ehtiyatlarının dövlət geoloji ekspertizasının keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.6-cı bəndin birinci cümləsində "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Faydalı qazıntı ehtiyatları üzrə komissiyası (bundan sonra "Faydalı qazıntı ehtiyatları üzrə komissiya" adlandırılan)" sözləri "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi (bundan sonra - Agentlik)" sözləri ilə əvəz edilsin;

1.2. 5.1-ci, 5.2-ci, 5.5-ci, 5.6-cı bəndlərdə, 6.2-ci bəndin birinci cümləsində və 6.3-cü bənddə ismin müvafiq hallarında "Faydalı qazıntı ehtiyatları üzrə komissiya" sözləri ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

1.3. 5.3-cü bənddə "Faydalı qazıntı ehtiyatları üzrə komissiyanın müzakirəsinə verir" sözləri "Agentliyə təqdim edir" sözləri ilə əvəz edilsin;

1.4. 5.4-cü bənd üzrə:

1.4.1. birinci cümlədə "Faydalı qazıntı ehtiyatları üzrə komissiyada baxılır və komissiyanın protokolu ilə" sözləri "Agentlikdə baxılır və Agentliyin qərarı ilə" sözləri ilə əvəz edilsin;

1.4.2. ikinci cümlədə "protokolun" sözü "qərarın" sözü ilə əvəz edilsin;

1.5. 5.7-ci bəndin birinci cümləsində "Faydalı qazıntı ehtiyatları üzrə komissiyanın protokolu" sözləri "Agentliyin qərarı" sözləri ilə əvəz edilsin;

1.6. 6.1-ci bənd üzrə:

1.6.1. birinci cümlədə "ekoloji" sözü "geoloji" sözü ilə, "Faydalı qazıntı ehtiyatları üzrə komissiya" sözləri "Agentlik" sözü ilə, "komissiya iclasının protokoluna" sözləri isə "Agentliyin qərarına" sözləri ilə əvəz edilsin;

1.6.2. ikinci cümlədə "Komissiyanın" sözü "Agentliyin" sözü ilə əvəz edilsin.

2. "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 116 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 168; 2001, № 10, maddə 640, № 12, maddə 755; 2003, № 10, maddə 577; 2005, № 11, maddə 1016; 2006, № 7, maddə 590; 2007, № 11, maddə 1110; 2010, № 7, maddə 610; 2014, № 11, maddə 1418; 2016, № 2, maddə 254, № 11, maddə 1818; 2018, № 6, maddə 1228) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissənin ikinci-doqquzuncu abzasları müvafiq olaraq 2.1-2.8-ci bəndlər hesab edilsin;

2.2. 2.3-cü bənddən "və bələdiyyə" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 973 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, №10, maddə 578; 2008, № 8, maddə 719) ilə təsdiq edilmiş "Faydalı qazıntı ehtiyatlarının təsdiq edilməsi və silinməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Kəşfiyyatı aparılmış faydalı qazıntı yataqlarının ehtiyatları Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyində (bundan sonra - Agentlik) dövlət ekspertizası aparıldıqdan sonra Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Faydalı Qazıntı Ehtiyatları üzrə Komissiyası tərəfindən təsdiq edilir.";

3.2. 1.4-cü və 3.6-cı bəndlərdə "Faydalı Qazıntı Ehtiyatları üzrə Komissiyanın" sözləri ismin müvafiq hallarında "Agentliyin" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2020-ci il*

## "Hər bir vətəndaş Prezidentin ətrafında sıx birləşməlidir"

Aprelin 23-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) onlayn iclas-müşavirə keçirilib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından AZƏRTAC-a bildirilib ki, AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev İcraiyyə Komitəsinin gündəliyində duran məsələlərlə bağlı iştirakçılara məlumat verib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası bu çətin günlərdə ölkə Prezidentinin yanında olmalı, xalqın, hər bir həmkarlar ittifaqı üzvünün, aztəminatlı ailələrin ehtiyaclarının ödənilməsi üçün bütün imkanların səfərbər etməlidir. Hər bir həmkarlar ittifaqı təşkilatı, həmkarlar ittifaq orqanlarının rəhbərləri ölkə Prezidentinin qərarlarının yerinə yetirilməsində yaxından iştirak etməli, pandemiya şəraitində karantin məhdudiyyətlərinə hər kəs tərəfindən əməl edilməsi üçün işlər genişləndirilməli, aztəminatlı ailələrə, yaşlı insanlara maddi yardımların göstərilməsi işi daha da genişləndirilməlidir.



Səttar Möhbalıyev, eyni zamanda, qısa müddətdə həmkarlar ittifaqı orqanlarının həyata keçirdikləri tədbirlər, göstərdikləri yardımlar barədə müşavirə iştirakçılarına məlumat verib. Qeyd edib ki, bu günə qədər həmkarlar ittifaqlarının bütün təşkilatları tərəfindən müvafiq məqsədlə bir milyon manatdan çox vəsait xərclənib. 3400-ə yaxın aztəminatlı ailəyə ərzaq yardımları göstərilib. 120 min manat məbləğində qoruyucu vasitələr alınaraq paylanılıb. 530 min manat məbləğində vəsait koronavirusla bağlı tədbirlərin həyata keçirilməsi üçün ianə edilib. Eyni zamanda həmkarlar ittifaqı təşkilatlarının rəhbər işçiləri öz əməkhaqlarından Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr ediblər. Həmkarlar ittifaqlarının ilk təşkilatlarından isə fonda 352 min 500 manat vəsait köçürülüb.

AHİK sədri daha sonra bildirib ki, AHİK tərəfindən respublikanın bütün bölgələrində üç minə yaxın aztəminatlı ailələrə ərzaq sovqatları paylanılacaq. Ərzaq sovqatlarının tərkibi hər bir ailə üçün vacib olan gündəlik tələbat mallarından ibarət olacaq. AHİK tərəfindən göstərilən bu yardımlardan əlavə, Sahə Həmkarlar İttifaqları və ilk təşkilatlar da yerlərdə bu təşəbbüslərə geniş şəkildə qoşularaq bu istiqamətdə işlərini davam etdirirlər.

## Bakı Ali Neft Məktəbinin əcnəbi tələbələri koronavirusla mübarizə aparanlara təşəkkür etdilər

Bakı Ali Neft Məktəbində (BANM) təhsil alan Nigeriya, Pakistan və Qazaxıstandan olan bir qrup əcnəbi tələbə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ali məktəbin Tələbə Evində qalmaqla özünütəcrid qaydalarına əməl edirlər. Bu barədə ali məktəbin Mətbuat xidmətindən məlumat verilib.

Tələbələr BANM-in əməkdaşları tərəfindən xüsusi karantin rejiminin tələbləri ilə bağlı məlumatlandırılıb, zərurət yarandıqda tibbi və qida ehtiyacları ilə təmin olunurlar.

Bütün dünyada olduğu kimi, ölkəmizdə də həyata keçirilən sosial izolyasiya tədbirləri çərçivəsində hökumətlə yanaşı, mübarizənin ön cəbhəsində olan tibb işçiləri, polis və hərbçilərin əzmkarlığı öz doğma evlərindən uzaqda olan tələbələrin də diqqətindən yayınmayıb.

Onlar görünməyən qəhrəmanlara təşəkkürlərini ifadə ediblər. Pandemiya dövründə yüksək əzmkarlıq nümayiş etdirərək qlobal virusla mübarizə aparanların cəsarətinin bütün insanlar üçün nümunə olduğunu qeyd ediblər.

Qeyd edək ki, sözügedən tələbələr Azərbaycanda pandemiya ilə mübarizədə hökumət tərəfindən həyata keçirilən preventiv tədbirlərin effektivliyini nəzərə alaraq öz ölkələrinə getməyiblər.

## Xainlər və xəyanətkarlar



"Bütün dünya bu gün koronavirus pandemiyası həyəcanını yaşayır. Neft ixrac edən dövlətlərdə eyni zamanda neftin qiymətinin pandemiya səbəbindən kəskin şəkildə düşməsi narahatlıqla müşahidə olunur. Əvvəllər aktual olan bir çox, bəlkə də əksər problemlər istisnasız olaraq hər bir ölkənin hökumətinin gündəliyindən çıxarılıb. İndi siyasətlə məşğul olmaq, siyasi piar qurmaq planları ən azından adi əxlaq normaları baxımından sanki qəbahət sayılır. Xəbərlər proqramlarından adət etdiyimiz siyasi mövzuların büsbütün yox olması dediyimizin bariz ifadəsi hesab oluna bilər. Lakin dünyada müşahidə olunan, haqqında söhbət açdığımız ümumi mənzərədən bir istisna da var. Nə qədər qəribə də olsa "milli şura" adlandırılan qruplaşmanın ətrafında birləşənlər hamının və hər kəsin pandemiya narahatlığını yaşadığı, bütün səylərin və diqqətin qorxulu xəstəliyin qarşısının alınmasına yönəldiyi indiki həssas məqamdan sırf siyasi məqsədlər naminə faydalanmaq xülyasına düşüblər. Əslində, onların müəyyən problemlər və ya çətinliklər yarandıqda fəallaşması yeni hadisə deyil, bəlkə də adət və ya xislətdir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-İcra katibi Əli Əhmədov özünün rəsmi "Facebook" səhifəsində paylaşdığı "Xainlər və xəyanətkarlar" sərlövhəli məqaləsində bildirib.

Əli Əhmədov qeyd edib ki, dünya bazarında neftin qiyməti aşağı düşən kimi o insanların dərhal "canlanmasının" dəfələrlə şahidi olmuşuq. İzaha ehtiyacı yoxdur ki, neft ixrac edən hər bir ölkədə enerji daşıyıcılarının qiymətinin kəskin şəkildə enməsi nə dövlətin, nə hökumətin, nə də insanların marağına uyğun deyildir. Hər kəsin buna hansısa formada məyus olmasını və adekvat formada reaksiya verməsini başa düşmək çətin deyil. Yalnız yuxarıda qeyd etdiyimiz "milli şuranın" ətrafında toplaşanların hərəkətləri hər cür sağlam əsaslardan məhrumdur. Deməli, xalqın mənafeyi anlayışı onlara nəinki tamam yaddır, onlar hətta xalqı narahat edən nə varsa, ondan həzz almaq kimi xoşagəlməz xislətə belə sahibdirlər. Elə bu səbəbdən də haqlı olaraq həmin adamlara düşmən damğası vurulub.

İkincisi isə, onlar normal siyasətçiyə heç bir halda başucalığı gətirməyən, yumşaq şəkildə desək, fürsətçilik xüsusiyyətinə malikdirlər. Xalq arasında belə hərəkətlərin daha dəqiq adı var: namərdlik.

Baş Nazirin müavini bildirib ki, dünyanın hər yerində hökumətlərin fəaliyyəti əhalinin sağlamlığının qorunması, yaranmış vəziyyətlə əlaqədar insanların sosial müdafiəsinin gücləndirilməsi, iqtisadiyyatın böhrandan xilas edilməsi kimi həyati problemlərin həllinə yönəlib. Bu mənada Azərbaycan hökuməti də istisna təşkil etmir. Bütün diqqət və imkanlar pandemiyanın və onun yaratdığı çətinliklərin aradan qaldırılmasına yönəlib. Uğurlar, müsbət nəticələr də göz qabağındadır. Bunu görməmək və etiraf etməmək üçün insan ədalət hissini yerli-dibli itirmiş olmalıdır. Lakin görünür "milli şuranın" ətrafında toplaşanlar, ələlxüsus Əli Kərimli ədalət hissini və siyasi əxlaq normalarını birdəfəlik unudublar. Belə olmasaydı ənənəvi olaraq yaxşı bacardıqları yalan, böhtan, iftira kampaniyasını heç olmasa indiki həssas günlərdə işə salmazdılar. Lakin onlar nəinki eybəcər vərdişlərindən əl çəkdilər, hətta bir az da qabağa getdilər. Əli Kərimlinin son günlərdə sosial şəbəkələrdə guya təqib edilməsi, internetə çıxışına maneələr törədilməsi, tərəfdaşlarının xüsusi karantin rejiminin pozulması adı altında inzibati məsuliyyətə cəlb olunması kimi sui-qəsd nəzəriyyələrinə yeni mövzu ola biləcək cəfəng uydurmaları ilə tanış olduqda istər-istəməz adamın başının döndüyü (damının tərpəndiyi) qənaətinə gəlməyə bilmirsən. Adamda sanki bir əlahiddəlik xəstəliyi yaranıb, hərçənd ortada belə bir xəstəliyin yaranmasına səbəb ola biləcək heç nə yoxdur.

"Əvvəldə qeyd edildiyi kimi, koronavirus pandemiyası şəraitində siyasət, siyasi rəqabət, siyasi piar və s. kimi anlayışlar və proseslər dünyanın gündəmindən, müvəqqəti də olsa çıxarılıb. Hətta qanlı münaqişələrə, bəşəriyyətin rahatlığını pozan məlum müharibələrə ara verilib. Ancaq dünyanın hazırkı mənzərəsinə uyğun olmayan və bu mənada haqlı olaraq ikrah hissi yaradan iki nümunə diqqət cəlb edir. Bunun biri qondarma "Dağlıq Qarabağ respublikası"nda separatçı rejimin keçirdiyi saxta seçkilərdir. Həmin seçkilərin hansı effekt yaratdığından danışmağa dəyməz. Digər ölkələr bir yana qalsın, hətta separatçı rejimin həqiqi sahibi olan Ermənistanın "seçkiləri" izləmək üçün müşahidəçilər göndərməkdən imtina etməsi onun hüquqazidd və əsassız olduğunu sübuta yetirir. İkinci eybəcər nümunə isə "milli şura"nın pandemiya ilə elliklə, hamılıqla həqiqi mənada mücadilə aparıldığı zamanda siyasi piar davası aparması, fürsətdən faydalanmağa çalışmasıdır. Bu insanların xalqla bir olmağını, əslində isə, xalqın maraqlarına düşmən kəsildiyini pandemiyanın yaratdığı həssas məqamdan öz məqsədləri naminə xəyanətkarcasına istifadə etmək cəhdlərindən daha yaxşı heç nə üzə çıxara bilməzdi. Belə halda deyiblər: xain xəyanət əməli üstündə yaxalandı", - deyə Əli Əhmədov vurğulayıb.

## Azərbaycan və Ukrayna Xarici İşlər nazirləri arasında telefon danışığı olub

Aprelin 23-də Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Ukraynanın Xarici İşlər naziri Dmitro Kuleba arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, tərəflər ikitərəfli əməkdaşlıq münasibətlərinin gündəliyinə daxil olan bir sıra məsələlər üzrə fikir mübadiləsi aparıblar.

Nazirlər ikitərəfli əməkdaşlığın gündəliyinin bir sıra məsələlərini, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq əlaqələrini müzakirə ediblər.

İkitərəfli əlaqələrin, o cümlədən iqtisadi, ticarət, nəqliyyat sahələrində daha da möhkəmləndirilməsi nazirlər tərəfindən vurğulanıb. Tərəflər Ukrayna Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı keçirilmiş yüksək səviyyəli görüşlərin və əldə olunmuş razılıqların hər iki ölkə arasında əməkdaşlığın dərinləşməsinə töhfə verəcəyindən əminlik ifadə ediblər.

Tərəflər, habelə turizm sahəsində imkanların daha çox istifadə edilməsinin əhəmiyyətini, hazırda COVID-19 pandemiyasının bu sahəyə mənfi təsir göstərdiyini qeyd edib və GUAM təşkilatının turizm sahəsində fəaliyyəti də daxil olmaqla bu istiqamətdə əməkdaşlığın davam etdirilməsini vurğulayıblar.

Nazir Elmar Məmmədyarov ukraynalı həmkarını Azərbaycana rəsmi səfərə dəvət edib və nazir Dmitro Kuleba dəvəti məmnunluqla qəbul edib.

## Xarici İşlər naziri Elmar Məmmədyarov moldovalı həmkarını Azərbaycana rəsmi səfərə dəvət edib

Xarici İşlər naziri Elmar Məmmədyarovun Moldova Xarici İşlər və Avropaya İnteqrasiya naziri Oleq Tulea ilə telefon danışığı baş tutub.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, tərəflər Moldova və Azərbaycan arasındakı ikitərəfli münasibətlərin hazırkı durumu, habelə əməkdaşlıq gündəliyində duran bir sıra aktual məsələləri müzakirə ediblər.

Eyni zamanda tərəflər mövcud vəziyyətə toxunaraq, hər iki dövlətin COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində gördüyü tədbirlər ətrafında fikir mübadiləsi aparıblar.

Aparılan telefon danışığı zamanı Azərbaycan və Moldovanın müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının perspektivləri müzakirə olunub və bu istiqamətdə birgə səylərin davam etdirilməsinə dair razılıq ifadə edilib.

Sonda nazir Elmar Məmmədyarov həmkarını Azərbaycana rəsmi səfərə dəvət edib və o, dəvəti məmnunluqla qəbul edib.

## Azərbaycanda yeni koronavirus infeksiyasına daha 30 yoluxma faktı qeydə alınıb, 41 nəfər müalicə olunub

Azərbaycan Respublikasında yeni koronavirus infeksiyasına daha 30 yoluxma faktı qeydə alınıb, 41 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, hazırkı dövrədək ölkəmizdə 1548 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 948 nəfər müalicə olunaraq sağalıb, 20 nəfər vəfat edib, 580 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 16 nəfərin vəziyyəti ağır, 25 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

## COVID-19-la mübarizədə dövlətimiz bütün imkanlarını səfərbər edib

Azərbaycan dövləti bütün imkanlarını səfərbər edib ki, COVID-19-la bağlı yaranmış vəziyyətdən az itkilərlə çıxsın, insanların həyatını qorusun və postpandemiya dövrünə hazır olsun. Bunu Prezident İlham Əliyev bu ilin mart və aprel aylarında keçirdiyi bütün videokonfrans və müşavirələrdə, eləcə də bir sıra sosial obyektlərin açılışı zamanı vurğulayıb.

2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan və videokonfrans şəklində keçirilən müşavirədə dövlət başçısı demişdir: "Artıq aparıcı beynəlxalq maliyyə qurumları qeyd edirlər ki, bu pandemiyadan yarana biləcək və yaranmaqda olan böhran 2008-2009-cu ilin böhranından daha da ağır olacaq. Bunu Beynəlxalq Valyuta Fondunun rəhbərliyi bildirmişdir. Eyni zamanda biz bilirik ki, Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına 150-dən çox ölkə yardım üçün müraciət etmişdir. Yəni dünya birliyinin mütləq əksəriyyəti artıq yardıma ehtiyac duyur və buna görə də müraciət edibdir. Azərbaycanın adı bu siyahıda yoxdur. Hesab edirəm ki, bu vəziyyətdən şərəflə çıxmağımız, - mən buna əminəm, - bir daha göstərəcək ki, bizim bütün addımlarımız düşünülmüş addımlardır və xalqımızın, dövlətimizin maraqlarına uyğun şəkildə atılan addımlardır."

COVID-19-la mübarizədə Azərbaycanda həyata keçirilən tədbirlər çoxsaylı və genişmiqyaslıdır. Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və onunla mübarizə istiqamətində səhiyyə tədbirlərinin həyata keçirilməsi məqsədi ilə hələ martın 19-da dövlət başçısının fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb. Prezidentin Ehtiyat Fondundan Koronavirusla Mübarizəyə Dəstək Fonduna ilkin olaraq 20 milyon manat vəsait ayrılıb. Martın 18-də imzalanan sərəncamla COVID-19 infeksiyası ilə mübarizə və profilaktika tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə maaşının 3-5 mislinədək miqdarda müddətli əlavə müəyyən edilib. Son bir-iki ayda ölkədə "Yeni klinika" açılıb, modul xəstəxanaların tikintisinə başlanıb.

Qeyd edildiyi kimi, dövlətin həyata keçirdiyi tədbirlər təkcə bir sahə çərçivəsində bitmir, ölkə əhalisinin bütün təbəqələrini əhatə edir.

Virusun geniş yayılmasının qarşısının alınması məqsədi ilə ölkə ərazisində çevik və sistemli preventiv tədbirlərin davamı olaraq martın 14-dən sosial izolyasiya qaydalarının tətbiq olunması, aprelin 20-dək isə xüsusi karantin rejiminin elan edilməsi buna aydın misaldır. Karantinin mayın 4-dək uzadılması da məhz xalqın sağlamlığına xidmət edir.

Bu dövrdə əhalinin güzəranı, dolanışığı da bir an belə diqqətdən yayınmayıb. Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında keçirdiyi iclasda demişdir: "İnsanların vəziyyətini yaxşılaşdırmaq üçün çox böyük sosial və iqtisadi paket təqdim olunur. Əvvəlki dövrlərdə 1 milyard manat məbləğində dəyərləndirilirdi, ondan sonra 2,5 milyard manat həcmində dəyərləndirilirdi. İndi verdiyim tapşırıqlar nəticəsində bu iqtisadi paket 3 milyard manatı, bəlkə də 3,5 milyard manatı ötəcək. Nə qədər lazımdır, biz bunu edəcəyik. Əminəm ki, biz bunu təmin edəcəyik."

Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən insanların əməkhaqlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılanır. Bu kateqoriyaya aid olan insanların sayı 300 mindən çoxdur. Eyni zamanda 300 minə yaxın mikrosahibkarın maliyyə vəziyyətinin təmin edilməsi üçün dövlət böyük maliyyə vəsaiti ayırıb. Beləliklə, ancaq bu kateqoriyalara aid olan 600 minə yaxın insan dövlətdən maddi dəstək alır.

Dövlət sektorunda işləyənlərin əməkhaqları tam ödənilir. Hazırda bir milyona yaxın insanın böyük əksəriyyəti işləmir, ancaq dövlət onların maaşını verir. Bu da bir daha Azərbaycan dövlətinin siyasətinin humanist mahiyyətini göstərir.

İlkin mərhələdə nəzərdə tutulurdu ki, 200 min insan dövlətdən 190 manat yardım alacaq. Ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayı 600 minə çatdırılacaq. 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verəcək. Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan şəxslərdir. İndiki çətin zamanda onların da problemlərini dövlət öz üzərinə götürüb.

Hazırda ölkədə 80 min ailə, yəni 330 mindən çox fərd ünvanlı sosial yardım proqramı ilə əhatə olunub. Aprelin 1-i ilə müqayisədə artım 10 min ailə və ya 36 min şəxsdir. Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib ki, Prezidentin tapşırığına uyğun olaraq bu dinamika mütəmadi şəkildə artırılacaq. Ünvanlı yardım aztəminatlı ailələrə önəmli bir dəstək mexanizmi kimi yenə də icra ediləcək.

Koronavirus pandemiyasına qarşı mübarizə sahəsində elan edilmiş xüsusi karantin rejimi dövründə eləcə də çətin vəziyyətdə olan şəxslərə və tənha yaşayan 65 yaşdan yuxarı vətəndaşlara sosial xidmət göstərilməsi və müvafiq yardım edilməsi istiqamətində tədbirlər həyata keçirilir.

Yeri gəlmişkən, Prezidentin sərəncamı ilə xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsinə cəlb edilən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələrində və tabeliyindəki sosial xidmət müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının bir misli miqdarında müddətli əlavə müəyyən edilib.

Bütün bunlar COVID-19-la mübarizədə dövlətin həyata keçirdiyi tədbirlərin yalnız bir hissəsidir.

O da vurğulanmalıdır ki, bu günlərdə xalq da dövlətlə birlikdədir. Məsələn, əhali və ayrı-ayrı təşkilatlar həmrəylik nümayiş etdirib və koronavirusla mübarizə istiqamətindəki işlərə öz vətəndaş töhfəsini verib. Ölkəmiz üçün bu həssas məqamdakı birlik sayəsində Koronavirusla Mübarizəyə Dəstək Fonduna qısa müddət ərzində ianələr hesabına 112 milyon manatdan çox vəsait toplanıb.

COVID-19 pandemiyası zəminində dünyada yaşanan hazırkı fövqəladə vəziyyətdə və dövlətimiz üçün həssas vaxtda ölkə əhalisi xüsusi karantin rejimi müddətində həmçinin əzm və vətəndaşlıq məsuliyyəti nümayiş etdirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## YAP-ın rayon və şəhər təşkilatları aztəminatlı ailələrə ərzaq yardımı aksiyasını davam etdirirlər

Xəbər verildiyi kimi, aprelin 14-də Yeni Azərbaycan Partiyası tərəfindən aztəminatlı ailələrə ərzaq yardımı aksiyasına start verilib.

YAP-dan AZƏRTAC-a bildiriblər ki, aksiya çərçivəsində ilk olaraq aprelin 14-17-də Bakı, Sumqayıt, Gəncə şəhərlərində və Abşeron rayonunda qayğıya və sosial müdafiəyə ehtiyacı olan aztəminatlı ailələrə ərzaq yardımı göstərilib.

Aprelin 20-dən isə aksiyanın respublikanın digər şəhər və rayonlarında davam etdirilməsinə başlanılıb. Aksiya bu həftənin sonuna qədər davam edəcək. Həmin ailələrə zəruri ərzaq yardımları Yeni Azərbaycan Partiyasının könüllüləri tərəfindən çatdırılır.

Qeyd edək ki, dünyada qlobal problemə çevrilmiş koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında sistemli tədbirlər həyata keçirilir. Ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası da koronavirusa qarşı mübarizə çərçivəsində görülən işlərə fəal şəkildə qoşulub. Partiyanın bütün strukturları əhalinin həssas təbəqəsinə aid olan ailələrə müntəzəm olaraq hər cür yardım və dəstək göstərirlər.

Eyni zamanda Yeni Azərbaycan Partiyası Koronavirusla Mübarizəyə Dəstək Fonduna ümumilikdə təxminən 500 min manat ianə edib, "Sağlamlığımız milli həmrəyliyimizdədir!" aksiyası həyata keçirib.

Hazırda isə Yeni Azərbaycan Partiyası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə martın 27-dən etibarən yaşı 65-dən yuxarı olan tənhalara, ahıl vətəndaşlara yardım paylayır, onlara sosial xidmətlər göstərir.

# Milli Məclis komitələrinin onlayn iclasları keçirilib

Aprelin 23-də Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin onlayn iclası keçirilib.

Parlamentin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclis Sədrinin müavini, komitə sədri Fəzail İbrahimli iclası açaraq gündəlik barədə məlumat verib.

Komitə sədri bildirib ki, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Gənclər siyasəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Reklam haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda müzakirəyə təqdim olunur.

Fəzail İbrahimli diqqətə çatdırıb ki, adları çəkilən sənədlərə təklif olunan düzəlişlər "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1524-VQD nömrəli Qanununa uyğunlaşdırma məqsədi daşıyır. Dəyişikliklər gənclərin mənəvi-əxlaqi tərbiyəsinin təmin edilməsi və sağlam gəncliyin formalaşdırılması baxımından əhəmiyyətlidir.

İclasda iştirak edən komitə üzvləri Sahib Alıyev, Azər Badamov, Sevinc Fətəliyeva, Malik Həsənov, Anar İsgəndərov, Ceyhun Məmmədov, Cavanşir Paşazadə layihə barədə fikirlərini açıqlayıblar.

Müzakirələrin sonunda qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Aprelin 23-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin növbəti onlayn iclası keçirilib.

Parlamentin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, komitə sədri Musa Quliyev bildirib ki, gündəlikdə "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə" (birinci oxunuş) bir məsələ var.

Komitə üzvlərinə məlumat verilib ki, Azərbaycan Prezidentinin martın 19-da imzaladığı "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamın 10.2-ci bəndinin icrası ilə əlaqədar Nazirlər Kabineti aprelin 4-də Tədbirlər Planını təsdiqləyib. "Sosial sığorta haqqında" qanunda aparılan dəyişikliklər bu məsələlərlə əlaqədardır. Belə ki, müzakirəyə təqdim olunan qanun layihəsi bir sıra sahibkarlıq subyektlərinin sosial sığorta yükünün azaldılması ilə bağlı güzəştləri əhatə edir.

Onlayn iclasda qanun layihəsi ətraflı müzakirə olunub. Komitə sədrinin müavini Məlahət İbrahimqızı, komitə üzvləri Vüqar Bayramov, Əziz Ələkbərli, Rauf Əliyev, Jalə Əliyeva, Sevinc Hüseynova, Aqil Məmmədov, İlham Məmmədov, Soltan Məmmədov, Arzu Nağıyev, Ziyad Səmədzadə rəy və təkliflərini bildiriblər.

Yekunda "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# İşğalçının beynəlxalq qanuna meydan oxuyan bəyanatı onu fəlakətə sürükləyəcək



Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın Yerevanda keçirdiyi mətbuat konfransında Qarabağ məsələsinin Azərbaycana ərazi güzəştləri ilə həllinin yolverilməzliyinə dair bəyanatına münasibətini bildirib.

Səməd Seyidov AZƏRTAC-a açıqlamasında deyib: "Bildiyiniz kimi, Rusiya XİN rəhbəri Sergey Lavrovun Dağlıq Qarabağ münaqişəsinin mərhələli yanaşma əsasında nizamlanmasını nəzərdə tutan sənəd haqqında açıqlamasından sonra Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan isterik səciyyəli bir bəyanatla çıxış edib. Bu bəyanata əsas olan, 2019-cu ilin aprelində Moskvada Rusiya, Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə keçirilən iclasında qəbul edilən sənəd Dağlıq Qarabağ ətrafındakı bir sıra rayonların azad edilməsini, nəqliyyat, iqtisadi və digər əlaqələrin blokadasının aradan qaldırılmasını nəzərdə tutur.

Ermənistan XİN rəhbəri Yerevanda keçirdiyi mətbuat konfransında Qarabağ məsələsinin Azərbaycana ərazi güzəştləri ilə həllinin yolverilməzliyinə dair bəyanatı ilə Dağlıq Qarabağ münaqişəsində Ermənistanın faktiki olaraq gücsüzlüyünü göstərərək, regionda təhlükəsizliyə və sabitliyə böyük bir təhdidi özündə ehtiva etdiyini sübuta yetirdi. Faktiki olaraq, Z.Mnatsakanyan bu bəyanatla Minsk qrupunun həmsədrlərinin də fəaliyyətinə çox ciddi zərbə vurub. Məhz bu nöqteyi-nəzərdən çıxış edərək, Minsk qrupunun həmsədrləri öz münasibətlərini bildirməlidirlər.

Biz dəfələrlə münaqişənin sülh və beynəlxalq qanunlar çərçivəsində danışıqlar yolu ilə həllinin tərəfdarı olduğumuzu desək də, dünyaya, eləcə də beynəlxalq qanuna azğın və işğalçı bir bəyanatın şahidi olduq. Mən bu bəyanatın hüquqi aspektlərini təhlil etmək fikrində deyiləm. Çünki bu mövqenin nə dərəcədə beynəlxalq hüquqa zidd və cəfəngiyat xarakterli olduğunu hamı çox gözəl başa düşür. Mən bəyanatın ərsəyə gəlməsini özü-özlüyündə bəzi beynəlxalq təşkilatların, Ermənistanı himayə edən dövlətlərin, yaxud da qurumların tamamilə məsuliyyətsiz, ikili standartlarla dolu bir siyasətin nəticəsi kimi qiymətləndirmənin labüd olduğunu qeyd etmək istəyirəm.

Təəssüf hissi ilə deməliyəm ki, Ermənistanın apardığı siyasət ciddi qınağa çevrilməyəndə, beynəlxalq qanunun tapdalandığı, hətta cinayətlərə hansısa formada bəraət qazandırmaq cəhdlərinin nəticəsində, bax belə məsuliyyətsiz, regionda sülhə və təhlükəsizliyə təhdid yaradan sözlərin, fikirlərin, bəyanatların meydana çıxdığını görürük. Bu gün biz hamımız regionda sabitliyin qorunması üçün çalışır, beynəlxalq qanunu bu regiona gətirmək istəyirik. Amma bunun üçün Prezident İlham Əliyevin dediyi kimi, Ermənistan dövlətinin apardığı siyasətin, faktiki olaraq, insanlığa qarşı bir siyasət olduğunu dünya ictimaiyyəti başa düşməlidir. Dünya ictimaiyyəti anlamalıdır ki, Ermənistan hakimiyyəti heç bir zaman nə insanları, nə insan hüquqlarını, nə də beynəlxalq qanunu düşünmür.

Regionda fəaliyyət göstərən nüfuzlu, təsir imkanlarına malik dövlətlərin də mövqeyini nəzərə almadan bu qəbildən olan məsuliyyətsiz bəyanatlarla çıxış edirlər. Hesab edirəm ki, bütün bunlar daha öncə dediyim kimi, Ermənistanın gücsüzlüyünü və ən əsası, çıxılmaz bir vəziyyətə düşdüyünü göstərir. Onları təşvişə salan Azərbaycan Prezidentinin apardığı hücum siyasəti, Münxendə, Davosda, eləcə də digər beynəlxalq arenalarda çıxış edərkən gətirdiyi və Ermənistanın iç üzünü tam şəkildə açan faktlardır.

Məhz bu təxribat burulğanında beynəlxalq qanunu tam şəkildə pozan bəyanata öz münasibətimizi bildirməli, heç bir ölkənin Azərbaycan ərazisində hər hansı bir qondarma rejim yaradılmasının imkansızlığını, Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə təmin olunacağını bəyan etməliyik. Dövlət başçısı İlham Əliyevin dediyi kimi, "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Ermənistan hökuməti və onun havadarları nə qədər çox bu qəbildən olan bəyanatlar verərsə, qeyri-qanuni seçkilər keçirib beynəlxalq ictimaiyyət qarşısında özlərini ifşa edərsə, regiona sülh və əmin-amanlıq gətirmək istəyən qüvvələrə qarşı fəaliyyət göstərərsə, özlərini bir o qədər tez süquta və fəlakətə sürükləyəcəklər".

# Azərbaycan XİN Ermənistanın bəyanatına cavab verdi

Ermənistan XİN-in bu ölkənin 2018-ci ildən bəri münaqişənin mərhələli həllinə əsaslanan danışıqlar aparmadığını iddia edən açıqlaması, hətta bu bəyanatın yerli ictimaiyyəti sakitləşdirmək üçün verildiyi aydın olsa belə, çox gülüncdür. Ermənistan XİN-in dürüst şəkildə öz əhalisini münaqişənin həlli üzrə aparılan sülh prosesi barədə məlumatlandırması daha doğru olardı.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan XİN-in Mətbuat xidməti idarəsinin şərhində bildirilir.

Qeyd olunur ki, 2018-ci ildə bu ölkədə hakimiyyət dəyişikliyi baş verəndən sonra Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri səviyyəsində sonuncu 21 aprel tarixli videokonfrans da daxil olmaqla 10 görüş keçirilib. Ermənistan XİN-in məntiqi ilə belə çıxır ki, iki ölkənin nazirləri, eləcə də 3 ölkənin həmsədrləri, habelə Xarici İşlər nazirlərinin heç bir işi yoxmuş kimi birgə vaxt keçirib söhbətləşmək üçün görüşüblər?!

Azərbaycanın münaqişənin həlli prosesi və danışıqların əsas prinsipləri barədə mövqeyi ən yüksək səviyyə də daxil olmaqla, hər zaman səsləndirilib. Vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk qrupunun həmsədrlərinin də mövqeyi onların verdikləri bəyanatlarda, o cümlədən 2019-cu ilin 9 mart tarixli bəyanatda açıq şəkildə ifadə olunub. Bunların hamısında münaqişənin mərhələli şəkildə həll olunması elementləri aydın şəkildə görünür.

Həmçinin danışıqlar eyni formatda və eyni gündəlik üzrə davam edir. Belə olmasaydı, 21 aprel tarixində məlum bəyanatını səsləndirən Ermənistan Xarici İşlər naziri bir neçə saat sonra videokonfransda iştirak edib müzakirələrə qatılmazdı.

Ermənistan Xarici İşlər nazirinin özünün də razılaşdırdığı kimi əhalisini sülhə hazırlanması istiqamətində addımlar atması daha faydalı olar.

# Erməni mənşəlilər və erməni çörəyi yeyənlər

Yaxud Əli Kərimli, Cəmil Həsənli, Qənimət Zahid, Gültəkin Hacıbəyli, Arif Məmmədov, Ramiz, Arif və Leyla Yunus, Sevinc Osmanqızı kimi antimilli ünsürlərin xəyanətkar simaları barədə bəzi vacib xatırlatmalar...



Cənubi Qafqaz regionunun lider ölkəsi olan və müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş - güclü və nüfuzlu dövlət kimi tanınan Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir. Bunu təmin edən strateji amil, heç şübhəsiz, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu daxili və xarici siyasətin həyata keçirilməsidir. Milli maraqlara və müasir qlobal çağırışlara cavab verən strateji kurs müstəqil xarakter daşıyır, ölkəmizin möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth etməsini şərtləndirir.

Təbii ki, respublikamızın dayanıqlı inkişafı, beynəlxalq mövqeyinin davamlı olaraq möhkəmlənməsi, eləcə də Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qətiyyətli mövqeyini davam etdirməsi anti-Azərbaycan, ermənipərəst dairələr tərəfindən böyük narahatlıqla qarşılanır. Ona görə də xaricdəki ermənipərəst dairələr Azərbaycanın əleyhinə qarayaxma kampaniyası aparır, ölkəmizin müstəqil siyasətinə və dinamik inkişafına maneə yaratmaq üçün müxtəlif çirkin vasitələrdən istifadə edirlər. Onların Azərbaycana qarşı məkrli planlarının reallaşmasında isə xaricdəki bəzi "siyasi mühacir"lər və ölkəmizdəki "beşinci kolon" xüsusi canfəşanlıq edir.

"Siyasi mühacir" adı ilə xaricə sığınan antimilli ünsürlər və "beşinci kolon" nə üçün indi fəallaşıb?

"Mühacir" adı ilə xaricə sığınan antimilli ünsürlərin, eləcə də ölkəmizdəki "beşinci kolon" nümayəndələrinin son zamanlar xüsusi fəallaş(dırıl)ması müşahidə olunur. Təbii ki, erməni mənşəli olanlar və erməni çörəyi ilə qidalananların məhz indi xüsusi fəallıq nümayiş etdirmələri bir sıra amillərlə əlaqədardır.

Məlum olduğu kimi, son zamanlar dünyanı çənginə almış yeni növ koronavirus infeksiyasının (COVID-19) ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin müvafiq tapşırıqları və göstərişləri əsasında təxirəsalınmaz tədbirlər həyata keçirilir və bütün zəruri resurslar səfərbər olunub. Ən əsası, əhalinin sağlamlığının qorunması və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində müvafiq addımlar atılır. Hazırkı şəraitdə qəbul olunan qərarların, imzalanan sənədlərin mühüm bir hissəsinin məqsədi pandemiya şəraitinin əhalinin rifahına, ölkə iqtisadiyyatına böyük ölçüdə mənfi təsirinin qarşısını almaqdan ibarətdir. Təqdirələyiqdir ki, ölkəmizdə iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək, eləcə də makroiqtisadi və maliyyə vəziyyətimizi sabit saxlamaq üçün 3,5 milyard manat vəsait ayrılıb, müxtəlif istiqamətlərdə dövlət dəstəyi mexanizmlərini özündə ehtiva edən çoxsaylı sənədlər imzalanıb. Bir sözlə, Azərbaycan dövləti öz vətəndaşlarının yanındadır. Təbii ki, pandemiyanın mənfi təsirlərindən qorunmaq üçün formalaşdırılmış mübarizə mexanizminin səmərəliliyini təmin edən mühüm amillərdən biri dövlət tərəfindən həyata keçirilən zəruri tədbirlərə əhalinin fəal dəstək göstərməsidir. Yəni pandemiya şəraitində də ölkəmizdə sarsılmaz xalq-iqtidar birliyi, milli həmrəylik özünü ən yüksək səviyyədə göstərir.

Təbii ki, anti-Azərbaycan dairələrin, erməni lobbisinin və ermənipərəst mərkəzlərin sifarişlərini yerinə yetirən "sapı özümüzdən olan balta"lar Azərbaycanın bu müsbət reallıqlarından ciddi narahatlıq duyduqlarına görə hərəkətə keçiblər. Onlar koronavirusun yayılmasına qarşı mübarizə məsələsi ilə əlaqədar sosial şəbəkələr vasitəsilə gerçəkliyə uyğun olmayan məlumatlar, daha doğrusu, dezinformasiyalar ortaya atmaqla sosial immuniteti azaltmağa, operativ və səmərəli tədbirlərin üzərinə kölgə salmağa, hətta vətəndaşların sağlamlığı və təhlükəsizliyi üçün xüsusi karantin rejiminin uzadılmasını manipulyasiya predmetinə çevirməyə çalışırlar. Çünki erməni lobbisinin maliyyəsi əsasında "fəaliyyət" göstərən bu antimilli ünsürlərin istəyi Azərbaycanda vəziyyətin gərginləşməsi, ölkəmizin xaos və anarxiya meydanına çevrilməsidir. Ona görə də onlar ölkədə koronavirus infeksiyasına yoluxanların və ölənlərin sayının artmasını, Azərbaycanın dərin sosial-iqtisadi problemlərlə üzləşməsini istəyirlər ki, bu məsələlərdən istifadə edərək Ermənistanın mənafeyinə uyğun, dövlətimizin maraqlarına zidd təbliğat kampaniyası apara, vətəndaşla dövlət arasında etimadsızlıq mühiti yarada bilsinlər. Bu isə birmənalı olaraq Vətənə, xalqa və dövlətə xəyanətin bariz nümunəsi - əyani ifadəsidir.

"Sapı özümüzdən olan balta"ların erməni sevgisi və erməni lobbisinə xidməti...

Öz xalqına və dövlətinə qarşı düşmənçilik mövqeyi sərgiləyən xaricdəki antimilli ünsürlərin, eləcə də ölkəmizdəki "beşinci kolon"un məhz indi xüsusi fəallaşmasının əsasında duran başqa bir səbəb haqqında...

Məlumdur ki, bütün regional layihələrdən kənarda qalan, bölgədə təcrid vəziyyətində olan işğalçı Ermənistanda siyasi xaos və iqtisadi tənəzzül dərinləşməkdədir. Bununla yanaşı, erməni lobbisi və terrorizmi, təcavüzkarlığı dövlət siyasətinə çevirmiş Ermənistan beynəlxalq miqyasda diplomatik müstəvidə də ciddi uğursuzluqlara düçar olub. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dərin strateji diplomatiyanın, yaxud hücum diplomatiyasının sayəsində erməni yalanları ifşa olunur, təcavüzkar erməni millətçilərinin "qara piar" kampaniyası iflasa uğradılır. Xüsusilə də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Valday və Aşqabadda tarixi və siyasi reallıqları qətiyyətlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdıraraq ermənilərin saxta təbliğatını ifşa etməsi, Münxendə isə Nikol Paşinyana tarix, hüquq, siyasət və diplomatiya dərsi keçməsi ermənilərdə, ermənipərəst dairələrdə ciddi mənəvi-psixoloji sarsıntının və əndişənin yaranmasına səbəb olub. Son zamanlar, həmçinin bu ölkədə hakimiyyətlə vətəndaşlar arasında ciddi ziddiyyətlər və konfrantasiyaların müşahidə edilməsi, Azərbaycanın qüdrəti qarşısında təlaş keçirən işğalçı ölkənin ordusunda mənfi halların artması, hətta Dağlıq Qarabağda xidmət edən əsgərlərin silahlarını ataraq qaçması kimi faktlar Ermənistanın ümumu mənzərəsini əks etdirən bariz reallıqlardır. Ona görə də isterika vəziyyətində olan erməni lobbisi hərəkətə keçərək təbliğat və qarayaxma kampaniyası vasitəsilə iki hədəfə çatmaq istəyir: birincisi, Ermənistanın acizliyini və acınacaqlı vəziyyətini gizlətmək, reallığı başqa cür təqdim etmək; ikincisi isə, gündən-günə inkişaf edən, güclənən Azərbaycanın müsbət reallıqlarının və möhtəşəm nailiyyətlərinin üzərinə kölgə salmaq. Təbii ki, bu prosesdə öz xidmətçilərinin əməyindən istifadə edirlər. Əfsuslar olsun ki, həmin qulluqçular sırasında xaricdə məskunlaşmış azərbaycanlılar, ölkəmizdəki "beşinci kolon" nümayəndələri - "sapı özümüzdən olan balta"lar da ön cərgədə yer alırlar. Erməni lobbisinin direktivlərini yerinə yetirən bu antimilli ünsürlər qondarma "Dağlıq Qarabağ respublikası"nda keçirilmiş "seçkilər"lə bağlı bir kəlimə qınayıcı və tənqidi fikirlər söyləmədikləri halda, Azərbaycanda azad, ədalətli, demokratik və şəffaf seçkilərlə bağlı yalanlar tirajlayırlar. Həmin qondarma "seçkilər"i qınayan və rədd edən bir çox ölkələrin, regional və beynəlxalq təşkilatların bəyanatlarında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə tam dəstək ifadə olunub, amma sözügedən marginal qruplaşmalar susqunluq nümayiş etdirirlər.

Erməni lobbisinin "muzdlu ideoloji əsgərləri": onlar kimlərdir və nə istəyirlər?

Erməni lobbisinin "muzdlu ideoloji əsgərləri"nin sıralarına nəzər yetirərkən gözə çarpan ilk fiqurlardan biri keçmiş "diplomat" Arif Məmmədovdur. Gəncədə doğulmuş bu şəxsin nənəsinin erməni olması aşkardır - heç kimə sirr deyil. Rus hərbi tərcüməçilik məktəbini bitirmiş Arif Məmmədov erməni qohumlarının köməyi ilə təhsil alıb və işə düzəlib. Heç bir bilik və bacarıq sahibi olmadığına görə həbəş dilinə yönləndirilib. Bir müqayisə aparaq: konservatoriyaya imtahan zamanı istedadlı insanlar arasında əsas rəqabət tar, kamança, skripka, fortepiano və digər bu kimi çalğı alətləri üzrə təhsili almaq istiqamətində müşahidə edilir. İstedadı kifayət qədər olmayan və tapşırılanlar isə kontrabasa yönlənir. Elə Arif Məmmədov da türk, ərəb, fars və ya Avropa dilləri üzrə deyil, heç kimə lazım olmayan, beynəlxalq əhəmiyyət daşımayan həbəş dili üzrə təhsil ala bilib ki, bu da onun savadsızlığı və istedadsızlığının bariz nümunəsidir. Digər tərəfdən, biz 1988-ci ildən başlayaraq Milli Azadlıq Hərəkatında fəal iştirak edərkən, ərazi bütövlüyümüzün qorunması uğrunda mübarizə apararkən tərcümeyi-halında 1988-1993-cü illəri gizlətmiş bu şəxsin elə həmin vaxt Həbəşistanda keçi otarmaqla məşğul olduğu da məlumdur. Nədənsə bu "mahir diplomat" heç vaxt həmin dönəmdən söhbət açmır.

Arif Məmmədov erməni xislətini Ermənistanın terrorçu dövlət olmasını ört-basdır etməyə çalışmaqla, hətta bu məqsədinə çatmaq üçün Azərbaycan dövlətini ittiham etməklə də göstərir. Bu şəxs Azərbaycanı "İsraildən aldığı silahları Suriya və Liviyada Türkiyəyə qarşı vuruşan terrorçulara satmaqda" günahlandırmaqla həm də iki qardaş ölkə - bir millət, iki dövlət olan Azərbaycan və Türkiyə arasında nifaq toxumu səpməyə yönəlmiş çirkin təbliğat aparır. O, nə Ermənistanın terror dövləti olmasından, işğalçı - təcavüzkar siyasət həyata keçirməsindən danışır, nə də terrorist təşkilat İŞİD barədə - onun birdən-birə necə meydana çıxması və kimə xidmət etməsi haqqında bir kəlmə deyir. Azərbaycan və Türkiyənin münasibətlərinin pozulmasını istəyən, Ermənistanı müdafiə edən kimlərdir? Təbii ki, ermənilər və ermənipərəst dairələr. Elə Arif Məmmədov kimi xainlər də nənələrinin və babalarının xəyanətkar əməllərinə sadiq qalaraq bu cür fəallıq nümayiş etdirirlər.

Başqa bir məqam: Azərbaycan dilində normal danışa bilməyən satqın "diplomat"ın tez-tez istifadə etdiyi "kürü diplomatiyası" ifadəsi elə onun öz diplomatik fəaliyyətinin mahiyyətini əks etdirir. Vaxtilə Azərbaycanın AŞ PA-dakı nümayəndəsi olmuş bu şəxs "ziyafət təşkil etmək" adı altında ayrı-ayrı məmurlardan maliyyə vəsaiti toplamış və mənimsəmişdir.

Aldığı tapşırıqlar və sifarişlər əsasında Azərbaycan dövlətinə qarşı çirkin təbliğat aparmaqla məşğul olan erməni xidmətçiləri sırasında Ramiz, Arif və Leyla Yunuslar da var. Bu şəxslərin erməni kimlikləri aşkardır (bu barədə Rasim Ağayevin, Əlizadə qardaşlarının yazılarında kifayət qədər faktlar var). Ramiz, Arif və Leyla Yunuslarla bağlı qanuni təftiş zamanı onların dünyanın ayrı-ayrı ölkələrində, o cümlədən Göyçə gölünün kənarında 11 mülkünün ortaya çıxması da bir çox mətləblərdən xəbər verir. Ermənistan ərazisinə dövlətimizi məlumatlandırmadan və icazə almadan, yəni qeyri-qanuni surətdə keçərək işğalçı ölkədə təşkil olunmuş toplantılarda iştirak edən və Azərbaycan dövlətinin milli maraqlarına zidd, Ermənistanın isə mənafeyinə uyğun fikirlər səsləndirən bu şəxslərin siması və ya simasızlığı ortadadır. İndi Ramiz Yunus yaşadığı ABŞ-dakı və xidmət etdiyi Ermənistandakı pandemiya şəraitində acınacaqlı vəziyyəti kənara qoyaraq Azərbaycanı tənqid etməyə, ictimai rəyi çaşdırmağa çalışır. Amma xalqımız onun yalanlarına, qərəzli və məkrli fikirlərinə inanmır, çünki bu antimilli ünsürü danışdıran amilin onların erməni mənşələri və erməni lobbisinin maliyyəsi olduğunu yaxşı bilir.

Anti-Azərbaycan cəbhəsində dayananlar sırasında olan Cəmil Həsənli isə xalqı, hakimiyyəti və dövləti hədəf seçərək yalan tirajlamaqla məşğuldur. Bu şəxs konkret olaraq ermənipərəst dairələrin qulluqçusu qismində dezinformator kimi çıxış edir. Bir zamanlar Milli Məclisin üzvü olarkən büdcə müzakirələri, Nazirlər Kabinetinin hesabatları zamanı hökumətin işini yüksək qiymətləndirən, parlamentdə, eləcə də Təhsil Nazirliyinin kollegiya iclaslarında ölkəmizdə təhsilin inkişafı barədə tərif yağdıran, buna görə Təhsil nazirindən "konvert" alan, cəmi 1 il parlament üzvü olduğu halda, Milli Məclisin deputatları üçün tikilmiş binada illərlə növbədə duran başqalarının haqqına girərək 4 otaqlı mənzil alan, keçmiş İqtisadiyyat nazirinin dəstəyi və maliyyəsi ilə yaşadığı binanın altında deputatların xeyir-şər mərasimləri üçün nəzərdə tutulmuş obyekti qeyri-qanuni şəkildə özəlləşdirərək mənimsəyən C.Həsənlinin indi haqdan danışması, sadəcə olaraq, absurddur! Şəffaflıq və ədalətdən dəm vuran Cəmil Həsənlinin deputat seçilmədikdən sonra yaşı uyğun olmadığı halda pensiya (deputatlıq təqaüdü) almaq üçün saxta yolla I qrup əlillik (gözdən) dərəcəsi alması isə onun hansı mənəviyyata sahib olduğunu aydın göstərir. Necə ola bilir ki, gözdən əlil şəxs elmlə məşğul olur, məqalələr və əsərlər dərc etdirir, elmi konfranslarda mühazirə oxuyur?!

Deputatlığı zamanı Milli Məclisdən çox Prezident Administrasiyasında olan, hər dəfə xarici səfərlərə, Avropa Şurasına gedərkən döymədiyi nazir qapısı qalmayan, prezident seçkiləri ərəfəsində, iclaslar zamanı hər kəsdən öncə çıxış edib təriflər söyləmək üçün dava edən Gültəkin Hacıbəylinin isə deputat seçilmədikdən sonra Azərbaycan iqtidarına və dövlətinə yönəlik qərəzli, iftira dolu fikirlər səsləndirməyə başlaması onun əsl simasını əks etdirir. Deputat seçildiyi Goranboydan milyonlar götürən, alçipan, gips zavodları, fabriklər açmış Gültəkin Hacıbəyli heç bir əmək müqaviləsi olmadan, Sosial Müdafiə Fonduna ödəmə etmədən və vergidən yayınmaqla çoxlu sayda insanın əməyini istismar edərək sərvətini artırırdı. O zaman bu şəxsin yadına heç xalq, vətəndaş düşmürdü. Paradoksal haldır ki, vaxtilə müqaviləsiz və qeyri-qanuni çalışdırdığı, buna görə də indi təqaüd ala bilməyən həmin insanların haqqını qaytarmaq əvəzinə, koronavirus pandemiyası şəraitində dövlətin insanlara yardımı, dəstəyi, xüsusi diqqət və qayğısının üzərinə kölgə salmağa çalışır.

Bir zamanlar adı qonşu ölkələrdən birində casusluğa qarışmış, əxlaqsızlıq macəraları ilə "şöhrət" sahibi olmuş, erməni lobbisinin tapşırıqlarını yerinə yetirən Qənimət Zahidin isə səsləndirdiyi fikirlər onun xisləti və mahiyyətini tam əks etdirir. Neftin qiymətinin düşməsi barədə danışarkən dəfələrlə "maşallah" sözündən istifadə edən Q.Zahidin bu məsələyə görə sevincinin həddi-hüdudu olmamasını aşkar nümayiş etdirməsi onun xalqa və dövlətə düşmən münasibətində olduğunu göstərir. Hətta o, düşünmür ki, neft gəlirlərindən səmərəli istifadə olunması sayəsində ölkə iqtisadiyyatının inkişafı nəticəsində qüdrətli Azərbaycan öz vətəndaşlarına hərtərəfli diqqət və qayğı göstərir. Heç olmasa, elə mənsub olduğu Şamaxı, Ağsu və İsmayıllıda zəlzələdən sonra neft gəlirləri hesabına minlərlə yeni evlərin tikilib istifadəyə verilməsi faktını xatırlasın. Halbuki nə yaşadığı Avropada, nə də cani-könüldən bağlı olduğu Ermənistanda belə bir nümunə var!

"Jurnalist" adını və peşəsini istismar edən, məkrli niyyət, məsuliyyətsizlik və digər əxlaqi səbəblərdən Azərbaycanda heç bir kütləvi informasiya vasitəsində sona qədər çalışa bilməyən Sevinc Osmanqızı bu gün okeanın o tayında erməni lobbisindən aldığı siyasi direktivlər əsasında ölkəmizə qarşı "qara piar" kampaniyası aparanlardandır. Bu "istedad abidəsi" Azərbaycan cəmiyyətində 1002 sifət daşıyıcısı kimi tanınır.

Xəyanət və satqınlıq simvoluna çevrilmiş antimilli ünsürlərin başında gələnlər sırasında Əli Kərimli xüsusi yer tutur. O, erməni lobbisinin, anti-Azərbaycan dairələrin xidmətçisi kimi çıxış edir. Hiyləgər planları ilə dostlarını, həmfikirlərini öz şəxsi ambisiyalarına və karyerasına qurban verən Ə.Kərimlinin hətta lider hesab etdiyi Əbülfəz Elçibəyin Türkiyədə müalicəsi üçün ayrılmış 150 min dolları, Çöhrəqaninin gözlərinin müalicəsi üçün Azərbaycanda toplanmış vəsaiti mənimsəməsi kimi faktlar onun mənəvi və siyasi əxlaqsızlığını aşkar nümayiş etdirir. Ermənilərdən pul alan, rəqiblərinin əleyhinə bütün separat danışıqlara gedən, sosial dəstəyə və elektorata malik olmadığına görə qorxudan heç bir seçkiyə qatılmayan, adı ictimai rəydə xəyanət və satqınlıq ifadələri ilə assosiasiya olunan Əli Kərimlinin indi "internet şousu" vasitəsilə özünü qəhrəmana çevirməyə, hakimiyyəti isə ləkələməyə çalışması cəhdləri cılız səylər kimi iflasa məhkumdur.

Nəticə etibarilə, bu gün Azərbaycan dövlətinə qarşı "qara piar" kampaniyası aparan, ölkəmizin uğurlarına kölgə salmağa çalışan, xalq-iqtidar birliyini, ictimai-siyasi sabitliyi və milli həmrəyliyi pozmağa cəhd edən antimilli ünsürlər, sadəcə olaraq, erməni mənşəli şəxslər və erməni çörəyi yeyənlərdir!

***Siyavuş NOVRUZOV,***
***YAP İcra katibinin müavini,***
***Milli Məclisin Regional məsələlər komitəsinin sədri***

# Ermənilərin “24 aprel soyqırımı” yalanı

## Real tarixdə izi olmayan dövlət

Fərdlərin xəyalları olduğu kimi, bütövlükdə xalqların da özünəməxsus xəyal dünyası var. Bir çox miflər elə xəyallardan yaranır. Büsbütün uydurulmuş, yaxud müəyyən real hadisələrin zamana uyğun tam təhrifi üzərində qurulmuş miflər absurd tarixşünaslıq ənənəsinin təməlini qoymuş olur. Ona görə də deyirlər ki, hər şey öz əndazəsində gözəldir. İstənilən bir xalq mifləri həqiqət kimi təqdim etməyə cəhd göstərəndə, onları dövlət ideologiyasının sütunlarına çevirəndə, öz uydurulmuş miflərinə görə real tarixi, sənədləşdirilmiş keçmişi saxtalaşdırmağa başlayanda, ən əsası isə, onlar üzərində gerçək siyasət qurub başqalarına qarşı əsassız iddialara başlayanda bu, ikrah doğurur. Eyni zamanda bəşəriyyət üçün böyük faciələrə gətirib çıxarır.













Uydurmalar, saxtakarlıqlarla dolu erməni tarixşünaslığının bu gün analoqu yoxdur. Çünki erməni xalqının, erməni dövlətçiliyinin tarixinin aparıcı hissəsi faktlara deyil, faktoidlərə, yəni fakt kimi təqdim olunan saxta məlumatlara söykənir. Qriqorian məzhəbinin yazılı tarixi isə qədim əsatirlərdən, xristian rəvayətlərinin tanınmaz hala salınan variantlarından, bir çox hallarda başqa xalqların mifologiyasından götürülmüş hissələrdən ibarətdir. Burada mifoloji məzmun və əsatir personajları ilə gerçək hadisələr və şəxslər arasındakı sərhəd həm nisbi, həm də illüziya xarakterlidir. Hazırda bu barədə bütün dünya alimləri öz tədqiqatlarında yazırlar. Vaxtilə pravoslav kilsəsinin yepiskopu, şərqşünas və arxeoloq Porfiri Uspenski də “Mənim Yaranış kitabım” əsərində ermənilərin saxta din tarixi yaratmaqda ənənəvi ustalıqlarını xüsusi qeyd etmiş, hətta onların “qədim yazılı sübutlar” yaratmaq texnologiyası ilə tanış olduqdan sonra bu sözləri demişdir: “İnanmayın! Ermənilərin tarixi sənədlərinə inanmayın! Onlar fırıldaqçıdırlar, saxta sənədlər düzəldirlər. Onların “qocalması”, saralması, köhnəlməsi üçün bu kağızları ya təzək qalağı altında saxlayır, ya da rütubətli yerlərə qoyurlar”.

Əfsuslar olsun ki, yalan miflər uydurmaqda və bu miflərə görə tarixi saxtalaşdırmaqda, onlardan siyasət aləti kimi faydalanmaqda “tayı-bərabəri olmayan” bir xalqla qonşu olmaq taleyimizə yazılıb. Ermənilərin mif yaradıcılığını diqqətlə nəzərdən keçirdikdə asanlıqla yəqin etmək olur ki, bu riyakar, xisləti mənfur insanlar miflərdən öz tarixlərini qədimləşdirmək məqsədilə istifadə etməkdə hətta bəşəriyyəti qabaqlayırlar. Belə bir hal onların demək olar ki, bütün nümayəndələrinin ən ağır formada yoluxduqları kollektiv xəstəlik simptomları kimi nəzərə çarpır. Bir xalqın dəlilik mərəzinə tutulması isə çox acınacaqlı və başqaları üçün faciəvi nəticələrə gətirib çıxaran təhlükəli bir prosesdir.

### Erməni saxtakarlığı və əqli mülkiyyət

Aprelin sonlarına doğru erməni saxtakarlığı, onların tarixi təhrif etmək hərisliyi, bu sahədə “zəngin təcrübəsi” mövzusunda söhbət açmağımız heç də təsadüfi deyil. Dünyada əqli mülkiyyət hüququ ilə bağlı iki əlamətdar gün məhz aprelin sonlarına təsadüf edir. Belə ki, hər il bütün dünyada 23 aprel UNESKO-nun “Ümumdünya kitab və müəlliflik hüququ günü”, 26 aprel isə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının “Beynəlxalq əqli mülkiyyət günü” kimi qeyd edilir. Erməni saxtakarlığı problemi əqli mülkiyyət hüquqlarının qorunması, müəllif-hüquq münasibətləri kontekstində də mühüm aktuallıq daşıyır. Məsələ burasındadır ki, ermənilərin tarixi saxtalaşdırmaları, başqalarının maddi-mənəvi irsini oğurlamağı özlərinə daimi peşə etmələri təkcə Azərbaycan xalqının deyil, digər xalqların da hüquqlarına ciddi xələl gətirir.

Tədqiqatçıların fikrincə, ermənilərin yüzillər boyu sınanmış mənimsəmə texnologiyası mürəkkəb və çoxmərhələlidir: əvvəlcə mənimsəmə üçün seçilən nümunənin “erməni mənşəyi” barədə “qədim erməni folkloru” səviyyəsində rəvayətlər uydurulur və ölkə daxilində dövriyyəyə buraxılır. Rəvayət ictimai təfəkkürdə özünə möhkəm yer tutduqdan, kütlə həqiqətən onun “erməni köklü” olmasına inandırıldıqdan sonra kitablara və orta məktəb dərsliklərinə salınır. Növbəti mərhələdə isə həmin rəvayətin “təkzibedilməz tarixi faktlara söykəndiyini” əsaslandırmaq üçün “qədim mənbələrin” formalaşdırılması prosesinə başlanılır. Bu mərhələdə, bir qayda olaraq, həmin mənbələr “XVIII-XIX əsrlərdə erməni rahibləri tərəfindən üzü köçürülən, orijinal nüsxələri isə 1915-ci il hadisələri nəticəsində it-bata düşən “qədim salnamələrdən” ibarət olur. Sonrakı, daha mürəkkəb mərhələdə isə həmin “qədim mənbələrdəki sitat və faktlar” müxtəlif yollarla xarici müəlliflərin əsərlərinə nüfuz etdirilir. Sonda isə bu mənimsəmənin erməni mənşəli olmasını göstərmək üçün daha folklor nümunələrinə deyil, nüfuzlu əcnəbi alimlərin əsərlərinə istinad edilir (Nazim Mustafa, “Uydurma erməni soyqırımının ideya müəllifləri və onların “aksioma” çevrilən saxta kitabları haqqında”, məqalə)

Frans Kafka yazırdı: “Hər şey, o cümlədən yalan da onlar üçün həqiqətə xidmət edir”. Amma yalan üzərində qurulan həqiqətin isə ömrü uzun olmur...

### M.Xorenskidən gələn saxtakarlıq

Məşhur latın zərb-məsəllərindən birində deyilir ki, “Hər bir sonluq onun başlanğıcından asılıdır”. Erməni saxtakarlığı da başlanğıcını erməni tarixinin atası sayılan M.Xorenskidən götürür. Bu başlanğıc belə bir acı həqiqəti ortaya qoyur ki, saxtakarlıq bu xalqın qanındadır. İstənilən sənədli, sənədsiz tarix ermənilər üçün keçmiş haqqında soraqdan, bilik mənbəyindən daha çox, ilk növbədə, saxtalaşdırma predmetidir. Tarixin atası Herodotun eramızdan əvvəl 5-ci əsrdə qələmə aldığı “Tarix” kitabının böyük bir hissəsi min il sonra erməni tarixinin yaradıcısı kimi tanınan M.Xorenskinin müəllifliyi altında saxtalaşdırılıb. Nə zaman, hansı əsasla bəlli deyil. Çünki ermənilər M.Xorenskinin özünü də saxtalaşdırıblar. Belə bir ad altında tarixşünaslığa kimliyi məlum olmayan saxta bir mənbə təqdim ediblər.

Yenə də tədqiqatçıların yazdıqlarına müraciət edək. Bu tarixçinin həyatı və fəaliyyəti, yaşadığı dövr əsərlərinin mətnləri qədər sirlidir və müəmmalarla doludur. Müxtəlif mənbələrdə onun həyatı barədə yazılanlara, eləcə də əsərlərindəki hadisələrin xronologiyasına inansaq, bu insanın az qala ümumiləşdirilmiş mifik personaj olması, təqribən 350-400 illik fərqi əhatə edən bir dövrdə, V-VIII əsrlər arasında yaşayıb-yaratması haqqında müxtəlif cür ehtimallar irəli sürülür. Elə son dəqiqləşdirmələr də onun doğum-ölüm tarixinin VIII əsr olduğunu təsdiqləməkdədir. “Erməni saxtakarlığı: Yalan üzərində qurulan tarix” kitabında yazılır ki, M.Xorenskinin qələmindən çıxan “Tarix” əsərinin mətni təqribən doqquz yüz il sonra - XVII əsrdə o qədər təhrif olunmuşdu ki, saxtakarlar ora hətta IX yüzillikdə baş vermiş hadisələri və onun həmin olaylara “obyektiv münasibətini” də daxil etmişdilər. Əsərin adını da dəyişib “Ermənistan tarixi” qoymuşdular. Təsadüfi deyil ki Qərb tarixçilərindən Avqust Karier hələ 1896-cı ildə M.Xorenskinin əsərlərindəki faktoloji uyğunsuzluqları, habelə saxtakarlıqları nəzərə alaraq yazırdı: “Qədim erməni tarixçilərinin məlumatına inanmaq naşılıqdır. Bu məlumatların böyük hissəsi uydurmadır”. Beləliklə, M.Xorenskini tarix saxtakarlarının ilk və ən böyük qurbanı hesab etmək olar.

Məlum olduğu kimi, Herodotun “Tarix”inin 100-cü fəslindən 103-cü fəslinə qədəri Midiyaya və massagetlərə həsr olunub (Kamran İmanov, “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir”, Bakı, 2020).

Mütəxəssislərin də etirafına görə, bu tarixi məlumatlar folklor nümunələri üzərində, yəni “Astiaq” və “Tomiris” rəvayətləri əsasında qurulub. Movses Xorenskinin müəllifliyi ilə təqdim olunan “Hayların tarix”ində elə həmin hadisələr başqa məna verməklə təsvir edilir. Bunlar hər şeydən əvvəl erməni xalqının həyatında tarixi mərhələ və onun qonşu xalqlara qarşı qəhrəmanlıq qarşıdurması kimi təqdim edilir. “Astiaq” əfsanəsi erməniləşdirilmiş variantla saxtalaşdırılır və mövcud olmayan “Tiqran və Əjdaha” adlı əfsanə yaradılır. Elə bu cür də “Tomiris” əfsanəsi “Artaşes və Satenik” əfsanəsi ilə dəyişdirilir. Bununla məşhur “Tomiris” tarixi adı unudulmağa məruz qalır. Ermənistanın hərbi gücü şişirdilir. Ən başlıcası isə, yalan və təhrif yolu ilə mövcud olmayan əfsanələr yaradılır. Belə bir başlanğıcı nəzərə alanda erməni xalqının tarixin saxtalaşdırılması sahəsində əsrlər boyu qazandığı təcrübənin hüdudlarını, daha dəqiq desək, hüdudsuzluğunu yaxşı təsəvvür etmək mümkün olur. Müasir erməni tarixçiləri bu əsəri müqəddəs kitab səviyyəsində qəbul edir, ona güclü istinadlar olunur, yeni uydurma və qərəzli nəşrlərin sifarişini verirlər.

### “İncil” necə erməniləşdirildi

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri, professor Kamran İmanovun ötən il çapdan çıxmış 1, bu il isə 3 kitabı erməni saxtakarlığının ifşası baxımından çox maraqlı faktlara işıq salır. Sözügedən kitablar bunlardır: “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya ermənilərin Qafqaz avtoxtonluğu cəhdləri”, “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir”, “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya digər xalqların siyasi tarixini, tarixi coğrafiyasını və mədəniyyətini özününküləşdirməklə hay-erməni qədimliyinin qurulma cəhdləri”.

M.Xorenskinin “Haylar tarixi”nin erməni saxtakarlığı nöqteyi-nəzərindən maraqlı tarixçəsinə toxunan K.İmanov bu əsərə aid təhriflərin, yalanların kitabın adından, yazıldığı tarixdən, müəllifindən başlamış tərcüməsinə qədər davam etdiyini tutarlı dəlillərlə sübuta yetirir. Yazının orijinalının olmadığını, hansı dildə - siro-aramey, yunan və ya qrabar dilində yazılmasının müəyyənləşmədiyini göstərir. Bu kitaba bütün istinadlar əsasən müasir erməni müəlliflərinə məxsusdur. “Maraqlıdır ki, X əsrə qədər hay istorioqrafiyasında M.Xorenskinin adı çəkilmir”.

Daha sonra müəllif yazır ki, bir sıra alimlərin fikrincə, M.Xorenski adı altında anonim keşiş tarixçisi çıxış edir. Çünki onun tərcümeyi-halı naməlum, saxta mənbələr əsasında yalnız 1858-ci ilin rus dilində olan nəşrində erməni mənşəli tərcüməçi N.Emin tərəfindən tərtib edilib. 1809-cu ildə rus dilinə tərcümə olunan nəşrdə (latın dilində 1736-cı ildə Londonda nəşr olunub) yazının adı “Ermənilər tarixi”nə, 1858-ci ildə isə “Armeniya tarixi”nə çevrilib. Bununla da haylar-ermənilər haqqında tarix uydurulmuş Armeniya ölkəsi tarixi adına çevrilib.

Ermənilər M.Xorenskinin adından istifadə edərək xristianlığın müqəddəs kitabı “İncil”i saxtalaşdırmaqdan belə çəkinməyiblər. “İncil”də müəyyən təftişlər apararaq bununla “İncil”in erməni variantını təqdim ediblər. Saxtakarlığın məkrli niyyəti isə “Xalqlar cədvəli”ndə Hayk və Armenak fantomlarının uydurulması və bu cədvəldə göstərilməyən şəcərə qollarını doldurmaqla hayları armenlərin əcdadlarına çevirmək, üstəlik, sakaların, qədim türklərin soykökü ilə “qohumluq” yaratmaqdan ibarət idi.

### Tarixi vətən və əcdadlar haqqında nağıllar

Əfsuslar olsun ki, keçmişdəki yalanlardan bəhrələnərək bu gün də çağdaş erməni uydurmaları və saxtakarlıqları yaradılır. Tarixi vətən və əcdadlar haqqında təhrifə məruz qalmış arayışlar davam etdirilir. Ermənilər özlərini haylar kimi təqdim etməklə bərabər mifik Aramla uydurulmuş qədim tarixi də saxlamaq və bununla yanaşı, arameylərin məşhur tarixindən bəhrələnmək, özlərini qədim Ərməniyyə dövlətinə bağlamağı məqsəd götürürdülər. Qafqaz Albaniyasına iddia etmək və bu dövlətin Azərbaycana guya heç bir aidiyyətinin olmaması barədə həyasız tezislər irəli sürmək isə erməni saxtakarlığının ayrı-ayrı istiqamətləridir. Kamran İmanovun kitabında ümumiləşdirilən tarixi faktlar, istinad etdiyi mötəbər elmi mənbələr isə bu saxtakarlıqların hər birini ifşa edir. Müəllif eləcə də əksəriyyəti turanlı olan Ərməniyyə əhalisi arasında haylara yer olmadığını göstərir. Sak və Albanlara gəlincə, onların Xattlar kökündən olduqları, Azərbaycan ərazisində yaşadıqları, Azərbaycan xalqının əcdadlarından biri olduqları bir daha sənədli mənbələr əsasında öz təsdiqini tapır.

Kamran İmanov qədim mətnlərdə və klassik mənbələrdə bir sıra xalqların yaşayış məkanı kimi əks olunmuş “Armeniya” anlayışının düşünülmüş halda “Haylar ölkəsi - Hayastanla” qarışdırılmasını və saxtalaşdırılmış süni sinonimlik vasitəsilə qədim diyarın tarixinin hay-ermənilərin xeyrinə özününküləşdirilməsini erməni tarixşünaslığının başlıca tezisi kimi ifşa edir.

Cənubi Qafqaz torpaqlarında hay-erməni avtoxtonluğuna aid sayılan və qədim mətnlərə, klassik mənbələrə istinadən guya “erməni çarlıqları” kimi təqdim olunan ölkələrin siyasi, etnik və dövlətçilik baxımından mahiyyətini açıqlamaqla erməni saxtakarlıqlarını gün işığına çıxarır. Müəllif yazır: “Şərqi Anadoluda yerləşən Ərminiyyə ərazisi qədim zamanlardan başlayaraq, bir sıra avtoxton etnosların yaşayış məkanı olmuş (xatti, xettlər, xurrilər, alarodi-urartular, sonradan qəmərlilər və saklar və digər turan mənşəli xalqlar), haylar isə bu əraziyə gəldiyi andan başlayaraq heç zaman buradakı xalqlar toplusunun çoxluğunu təşkil etməmişlər və kiçik koloniya şəklində yaşamışlar. Haylar Ərminiyyə ərazisinə gəldikdən öncə semit olan və əcdadlarını Aram adlandıran arameylərin güclü təsiri altında toplu kimi formalaşıblar.

Haylar orta əsrlərdə “ermənilər” etnonimini mənimsəməklə bir neçə məqsəd güdmüşlər: uydurma “Ermənilər” adı altında avtoxton xalqların ərazilərini özününküləşdirmək, onların tarixini “Haylar tarixinə” çevirmək, VI əsrdə Yustinianın inzibati islahatı ilə bağlı özlərinə legitimlik qazanmaq və həmin zamanlardan işlənilən “Armeniya” terminini çağdaş hay-ermənilərə aid etmək”.

Kitabda verilən sitatlarda isə oxuyuruq: “ İ.Şopen (fransız mənşəli rus alimi): “Ermənilərin və hayların mənşəyi fərqlidir. Ermənilər pelasqlardan (qədim ionlar, sonrakı etrusklar), haylar isə semitdilər... Ermənilər parfiyalılara etnik yaxındılar (ərsaklar, saklar)”. ...”Alimlərə aydın olmayan səbəblərə görə hayları və onların vətəni Hayastanı Ermənilərlə və Ərməniyyə ilə qarışdırıblar. Erməni şimaldan gələn, Yafət soyundan olan (madiylər, aşkenazlar, qəmərlilər, torklar və s.), Hayk cənubdan gələn, Sim soyludur”. ...”Haykın törəmələri “Armen”, “Somex” adlarını tanımaq istəmirlər... Bu xalqın ədəbiyyatı yalnız Haykanlar adından yazılıb və heç bir izahı yoxdur ki, hansı səbəbdən bugünkü ermənişünas alimlər Hayların və Hayastanın adlarını “Armen” və “Armeniya” kimi tərcümə edirlər”. İ.Şopen hesab edirdi ki, müasir hay-ermənilər “ermənilərin, parfların, hayların və yəhudilərin qarışığından əmələ gələn, öz mənsubiyyətini və doğma adını unutmuş xalqdır”.

Bununla da müəllif qədim mətnlər və klassik mənbələr əsasında “əsrlərdən gələn və 2,5 min il tarixi olan” kəsilməz hay-erməni dövlətçiliyi ənənəsinin uydurma olduğunu göstərir.

Ermənilər tarixi saxtalaşdırmaq, özlərini ərazidəki qədim xalqların davamçıları kimi təqdim etmək məqsədilə xəritələrdən də istifadə etməyə çalışırlar. Amma bu xəritələrin özü də onların saxtakarlığını ifşa edən tutarlı mənbələrdəndir. Məlumdur ki, ərazinin hansısa xalqa aidiyyətini bildirən əsas soraqlardan biri də toponimlər - yəni yer adlarıdır. Budur, qədim xəritələr ən azı 2500 il bundan əvvəl də bu regionda türk mənşəli toponimlərin, o cümlədən hidronimlərin (su obyektinin adı) olduğunu göstərir. Bu, ərazinin ən qədim dövrlərdən saka-türklərin torpaqları olmasına bir sübutdur. Bunun müqabilində regionda bir dənə, hətta 1000 il tarixi olan erməni (hay) toponimi yoxdur. Bunun özü də ermənilərin (haylar) gəlmələr olduğunu isbat edir.

Zamanın lap qədim qatlarındakı mübahisəli sualları aydınlaşdırmaqdan ötrü müasir tarixşünaslıqda DNK analizi metodundan geniş istifadə edilir. Qafqazda kimin yerli (avtoxton), kimin gəlmə olduğunu müəyyən etməkdən ötrü bu regiondakı xalqlarla bağlı DNK analizləri aparılıb. Nəticələr özlərini Qafqazın əsas avtoxton xalqı kimi göstərməyə çalışan ermənilər üçün arzuolunmazdır. Genetik araşdırmalar sübut edir ki, ermənilər 13 müxtəlif qədim qəbilə birliyinin nəticəsidir və güman ki, onların birləşməsində dil müvafiq rol oynayıb. Ermənilər gəlmələrdir. Kamran İmanovun kitabında bu məsələyə də xüsusi diqqət yetirilib.

### Fəxr edirik ki, azərbaycanlıyıq

Professor K.İmanovun kitablarında UNESKO-nun 76 ölkə arasında keçirdiyi maraqlı bir sorğunun nəticələri də öz əksini tapıb. Təbii ki, hər bir fərd özünü müəyyən mədəni qrupa aid etmək hüququna malikdir. Bununla da öz identikliyini etnik, dini, milli-vətəndaş və ya istənilən başqa bir qrupda müəyyənləşdirir. İdentiklik “icma”, “ölkə” və “dünya” qrupları arasından seçilə bilər. “İcma” dedikdə sırf etnik, yəni lokal, ərazi və ya mədəni məkana, “ölkə” dedikdə - milli və ya vətəndaş, “dünya” dedikdə isə bəşəriyyətə olan seçim məxsusluğu nəzərdə tutulur. Erməniçilik öz identiklik qrupunu digərlərinə qarşı müxalif nöqteyi-nəzərdən təsəvvür edərək, “müstəsnalıq”, “xüsusilik” iddiası ilə özünü “izolyasiya” edir. Digərlərinə qarşı etnik təmizləməni təşviq edir. Belə şəraitdə “icma” (etnik) göstəricisi yüksək olur. Müsbət sxem əsasında qurulan identiklik isə digərlərinə düşmən baxışı yox, əksinə, qruplararası münasibətlərdə kompromis axtarışına, konsensusun tapılmasına yönəlir. Bu vəziyyətdə isə “ölkə”, “dünya” identiklik göstəriciləri daha böyük üstünlük təşkil edərək “icma” göstəricisindən qabağa çıxır. Azərbaycan xalqının tarixdən gələn tolerantlıq ənənələri buna sübutdur. Multikultural cəmiyyətdə pozitiv sxemi ilə qurulan identiklik qalib gəlir və getdikcə milli-vətəndaş identikliyi etnik (icma) identikliyi üstələyir.

UNESKO-nun 76 ölkədə identikliklə bağlı keçirilmiş “World Values” sorğusundakı rəqəmlər əsasında K.İmanovun apardığı araşdırmalarsa göstərir ki, bizim multikultural dəyərlərimizi, tolerantlıq əlamətlərimizi təsdiqləyən mühüm faktorlar çox aşağı səviyyədə olan “icma” (24%) və çox yüksək olan “dünya” (21%) identikliyi göstəricilərimiz və bu mənzərəni tamamlayan yüksək “ölkə” identikliyimizdir (55%). Bu o deməkdir ki, ölkəmizdə vətəndaş həmrəyliyi, milli-vətəndaş identikliyi icma, lokal, etnik identikliyi qat-qat üstələyir. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün Azərbaycan Prezidenti İlham Əliyevin böyük uğurla davam etdirdiyi ümumbəşəri prinsiplərə əsaslanan siyasət əhali tərəfindən dəstəklənərək, yüksək “dünya” məxsusluğu identikliyini formalaşdırır.

Ermənistana gəlincə, onun “icma”- etnik identiklik göstəricisi çox yüksək olaraq 38 faizdir. “Dünya” identikliyi isə yalnız 11 faizdir. Bu isə ermənilərin təkcə öz qonşuları üçün yox, əslində, bəşəriyyət üçün təhlükəli düşüncələrlə silahlanmış xalq olmalarına dəlalət edir.

* * *

Professor Kamran İmanov erməni saxtakarlığının maraqlı və bir o qədər də qorxulu məntiqini təqdim edir. Çünki “erməni milli ideyasına” qulluğun məqsədi birdir: bunlar “Böyük Ermənistan”, “Dənizdən dənizə olan Ermənistan” xülyası “dəyirmanına su tökür”. Uydurmaların yaranması üsulları da onların riyakarlıq diapazonu kimi məhdudiyyətsizdir: hamını aldatmaq, təhrif olunmuş faktlara inandırmaq... İllər əvvələ qədər bu yalanlarla bəlkə də kimlərisə aldatmaq olardı. Amma bu yalanların qarşısına real həqiqətlərlə çıxan Azərbaycanın apardığı haqq davası, effektiv informasiya müharibəsi erməni saxtakarlığının meydanını get-gedə daraltmaqdadır.

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

# Ermənilərin 24 aprel uydurması, Azərbaycanın 2 aprel həqiqəti

1915-ci il aprelin 24-ü erməni terror təşkilatları - “Qnçaq”, “Daşnak” və “Ramqavar”ın rəhbərlərinin həbs olunduğu gündür. Bu təşkilatlar XIX əsrin sonu-XX əsrin əvvəllərində azərbaycanlılara və türklərə qarşı terror və qətliamlar törətmək məqsədilə yaradılmışdı. 24 aprel həbsi isə onların niyyətlərinin qarşısını almışdı.

### Qondarma iddia ilə bağlı fakt yoxdur

Əslində, nə 1915-ci il aprelin 24-də, nə də ondan bir neçə gün əvvəl və sonra Anadoluda heç bir döyüş və ya köçürmə hadisəsi baş verməyib. Ermənilər həmin tarixi ona görə “soyqırımı günü” kimi qeyd edirlər ki, qurduqları plan boşa çıxmış, terrorçu liderləri məhz həmin gün həbs olunmuşdular. Arxiv məlumatlarına əsasən tarixi həqiqətlər bundan ibarətdir ki, Birinci Dünya müharibəsi zamanı Şərqi Anadolunun erməni əhalisi Osmanlı dövlətinə qarşı qiyam qaldırmışdı. Buna görə də Osmanlı hökuməti qəti tədbirlər görməyə məcbur olmuşdu. Fevralın 25-də ordunun baş qərargahı ermənilərin heç bir halda hərbi xidmətə cəlb edilməməsi barədə bütün hərbi hissələrə təlimat göndərdi. Aprelin 24-də isə Daxili İşlər Nazirliyi erməni komitə mərkəzlərinin bağlanması, əmlaklarının müsadirə edilməsi və komitə başçılarının həbs olunması barədə əmr vermişdi.

Sonralar erməni millətçiləri Türkiyə və Azərbaycan ərazilərində insanlığa qarşı törətdikləri dəhşətli soyqırımı cinayətlərini ört-basdır etmək üçün yalançı “soyqırımı” mifini uyduraraq erməniləri dünyanın “əzabkeş xalqı” kimi qələmə verməyə başladılar. Maraqlıdır ki, ermənilər ötən əsrin 50-ci illərinə qədər bu barədə müzakirə açmayıblar. Soyqırımı iddiaları yalnız 1950-ci illərdən gündəmə gəlib. Kilsənin irəli sürdüyü iddialar Amerika və Avropada erməni lobbisinin dəstəyi ilə kampaniyaya çevrilib.

Lakin ermənilər onlara qarşı “soyqırımı” törədildiyini iddia etsələr də, hələ indiyə qədər bununla bağlı tutarlı fakt ortaya qoya bilməyiblər. Türkiyə dövlətinin təkidinə baxmayaraq, indiyə qədər Ermənistan arxivlərin birgə öyrənilməsini və araşdırılmasını heç bir vəchlə istəməyib. Qondarma “soyqırımı”nı tanıyan ölkələr də tarixdə nəyin baş verdiyini araşdırmaq məqsədilə Türkiyəyə alim göndərməkdə maraqlı olmayıb.

Ardı 6-cı səh.

# Ermənilərin “24 aprel soyqırımı” yalanı

## Tarixdəki erməni saxtakarlıqları

Erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı iki əsrdən artıq müddətdə məqsədyönlü şəkildə həyata keçirdikləri soyqırımı, etnik təmizləmə və deportasiya siyasətinin məqsədi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaq, bu ərazilərdə özlərinin böyük dövlətlərini yaratmaq olub. Ermənilər 1905, 1915 və 1918-ci illərdə istər Azərbaycanda, istərsə də Türkiyədə dəhşətli soyqırımı aktları törədiblər. Bakıda, Şamaxıda, Qubada, İsmayıllıda və başqa yerlərdə qadına, uşağa, qocaya məhəl qoymadan dinc əhalini kütləvi şəkildə qətlə yetiriblər. Bakının küçələrində qan su yerinə axıb. Son vaxtlarda üzə çıxan dəhşətli faktlardan biri də Qubada və Şamaxıda törətdikləri vəhşiliklərdir. Ermənilər öldürdükləri insanları quyulara doldurub üstünü torpaqlayıblar. 1992-ci ildə Xocalıda həyata keçirdikləri qətliamlar isə sözün həqiqi mənasında hər kəsi dəhşətə gətirirdi.

Ermənilər bütün bu soyqırımlarını türklərin boynuna qoymaq üçün dəridən-qabıqdan çıxırlar. Xocalı soyqırımını lentə çəkib uydurma 1915-ci il hadisələri kimi qələmə vermək istəyiblər. Hətta həmin soyqırımı haqqında film çəkmək üçün bir italyan kinorejissoru ilə də razılaşıblar, lentləri ona veriblər. Sonradan kinorejissor lentlərin 1915-ci ildə yox, lap son vaxtlarda çəkildiyini bilib və genosid haqqında film çəkməkdən imtina edib. Ermənilər yüz ildən artıqdır ki, 1915-ci ildə özlərinin dinc türk əhalisinə qarşı törətdikləri soyqırımını türklərin üzərinə yıxmaq istəyir və buna dünyanı inandırmaq üçün bütün tarixi faktları kökündən saxtalaşdırırlar.

Ermənilərin uzunmüddətli planları var və bu planları həyata keçirmək üçün, ilk növbədə, güclü təbliğat aparır, görəcəkləri işlər üçün ideoloji mühit yaradır, ictimai fikir formalaşdırırlar. Onlar təbliğatın gücünü yaxşı bilir və ondan maksimum yararlanmağa çalışırlar. Ermənistan dövlətini yaratmağa rəsmi olaraq 1650-ci ildən başlayan ermənilər 370 illik təbliğatın nəticəsində onu yalnız 1920-ci ildə Rusiyanın köməyi ilə Azərbaycan torpağında reallaşdırmağa nail olublar.

1920-ci ilə qədər tarixin heç bir dövründə Ermənistan adlı dövlət olmayıb və onun haqqında yazılanlar erməni uydurmasından başqa bir şey deyil. İ.M.Dyakonov yazır ki, tarixi qaynaqlarda adına rast gəlinən Urartu dövlətini biz bilə-bilə Ermənistan elədik. Rus şərqşünası İqor Peçenev 1920-ci ilə qədər tarixdə Ermənistan dövlətinin olmadığı fikrini böyük cəsarətlə söyləmişdir. Tiqran da erməni uydurmasından başqa bir şey deyil.

1650-ci il ermənilərin dövlət yaratmaq məqsədilə ilk dəfə toplanıb havadarlıq üçün Avropa dövlətlərinə üz tutmağı qərara aldıqları tarixdir. Onlar həmin vaxtdan başlayaraq Romaya, Avstriyaya, Almaniyaya və Fransaya nümayəndələr göndərib, hamısından da qovulublar. Yalnız bundan sonra Rusiyaya üz tutub, 1701-ci ildə Birinci Pyotrla görüşüblər. Avropa dövlətlərindən qovulana qədər ermənilər Rusiyanı ikiüzlü adlandırıblar.

Ermənilər təbliğatı özfəaliyyət şəklində deyil, düşünülmüş siyasətlə aparırlar. Onlar bu işi görmək üçün hələ XIX əsrdə ayrı-ayrı ölkələrdə bir neçə təşkilat yaradıblar. “Qnçaq” və “Daşnaksütyun” partiyalarını yaradanların da məqsədi məhz erməni təbliğatını gücləndirmək və onu bir mərkəzdən idarə etmək idi. Nəhayət, ermənilər katolikosluğun nüfuzundan məharətlə bəhrələniblər. Erməni katolikosluğu yarandığı gündən bu təbliğatın idarəolunma mərkəzinə çevrilib və bütün təşkilatlar indi də onun koordinasiyası altında fəaliyyət göstərir. Bu gün erməni təbliğatının başında katalikosun durduğu hamıya bəllidir.

Ermənilər Qarabağ problemini açıb-ağartmazdan çox-çox əvvəl onun da ideoloji bazasını yaratmağa başlayıb, bu məqsədlə təbliğat maşınlarını işə salıblar. Əvvəlcə bizim maddi və mənəvi mədəniyyətimizi mənimsəyiblər. Qazıntılar zamanı tapılmış saysız-hesabsız türk mədəniyyət abidələrini öz adlarına çıxarıblar, yüzlərlə əlyazmalarımızı tərcümə edib özününküləşdirərək orijinalları məhv ediblər.

Bu gün “qədim erməni mənbələri” adlandırılmış əsərlərin hamısı erməni dilinə tərcümə edilmiş və ciddi şəkildə dəyişdirilmiş türk əlyazma kitablarıdır. Burada anonim erməni xronikalarını mütləq qeyd etmək lazımdır. Bu gün erməni tarixçiləri guya IV-V əsrlərdə yazılmış bir neçə anonim erməni xronikasının adını çəkirlər. Həmin anonim xronikalarda yalnız XIX yüzilliyin ikinci yarısında türk dilindən erməni dilinə keçmiş sözlərə rast gəlinməsi onların həqiqətən saxta olduğunu və həmin dövrdə yazıldığını, yaxud üzünün köçürüldüyünü təsdiqləyir. Bunlar təkzibedilməz faktlardır.

Musa Kolankatlının “Ağvan tarixi” əsəri erməni tərcüməçilərinin qələmindən çıxandan sonra orijinalın ən azı 50 faizi dəyişdirilib. Bu işin ilk ustadı K.Patkanyan olub. Onun saxtakarlıqları haqqında akademik B.A.Dorn hələ 1875-ci ildə məlumat verib. Sonra S.Sumbatyan da Musa Kolankatlının “Ağvan tarixi” əsərinin məzmununu bir xeyli dəyişdirərək, özündən əlavələr də edib. T.İ.Ter-Qriqoryan yazır ki, “Ağvan tarixi” əsəri öz əvvəlki şəklində gəlib bizə çatmayıb. Onun üzünü köçürənlər erməni katolikoslarının göstərişi ilə mətni təhrif edib, sonradan öz xeyirlərinə nələrisə artırıblar.

Erməni müəllifləri M.Qoçun “Qanun” kitabının adını “Erməni qanunnaməsi” qoyub içini də erməniləşdirəndə bircə onu düşünüblər ki, 100 ildən sonra onların bu yalanlarına hamı inanacaq. Halbuki Muxtar Qoçun nə özü ermənidir, nə də kitabında ermənilərdən danışılır.

VII əsrdə yaşamış Azərbaycan (Ağvan) şairi Dəvdəyin “Cavanşirin ölümünə ağı” poemasının orijinalı ermənilərin əllərinə düşüb. Onlar əsəri erməni dilinə tərcümə etdikdən sonra əslini ya gizlədib, ya da məhv ediblər. Sonra onu erməni ədəbiyyatının nümunəsi kimi dünyanın əksər dillərinə tərcümə edib geniş şəkildə yayıblar. Kitab ərəb dilinin bir neçə ləhcəsində çap edilib. Erməni dilində “ə” səsi olmadığına görə, Dəvdəyin adını da Davdağ eləyiblər. Bəzi Azərbaycan alimləri də Dəvdəyin adını Davdağ şəklində yazırlar.

Aqatangelin “Tarix” kitabının yunan dilindəki orijinalı 2, erməni qələmindən çıxmış variantı 3 fəsildən ibarətdir. Kitabın adını da dəyişib “Erməni tarixi” qoyublar. Kitabın yunan dilindəki mətnində bir dəfə də olsun “erməni” və “Ermənistan” sözləri işlənmədiyi halda, onun içini “erməni” və “Ermənistan” sözləri ilə doldurmaqla tərcümədən sonra əsəri ermənilər əməlli-başlı erməni tarixi ediblər. Arakel Təbrizlinin “Tarix” kitabının da əsli 2, müəllif öləndən sonra kilsədə işlənmiş saxta variantı 3 fəsildir.

Bu gün ermənilər saxta tarix yazmaqda dünyada görünməmiş təcrübə toplayıb, həmin işi yüksək səviyyədə görməyi bacaran mütəxəssislər hazırlayıblar. Ona görə də ermənilərin təbliğat maşını dayanmadan işləyir.

Təəssüflə demək lazımdır ki, Azərbaycan tarixçiləri də bir çox hallarda tarixi qaynaqları bilmədiklərinə görə saxtalaşdırılmış kitablara istinad edir və son nəticədə ermənilərin dəyirmanına su tökürlər. Məsələn, bir çox tarix kitablarında, o cümlədən “Azərbaycan tarixi” dərsliklərində XVI, XVII, XVIII, XIX əsrlərdə Ermənistan dövlətindən danışılır.

Ermənilər Dağlıq Qarabağdan danışarkan tarixi sənədləri kobud şəkildə saxtalaşdırırlar. Bunlardan biri Fəhlə-Kəndli Partiyası (b) Zaqafqaziya bürosunun rəsmi qərarıdır. 4 iyul 1921-ci ildə Zaqafqaziya bürosu Qarabağ məsələsini iki formatda müzakirəyə qoyub:

- Qarabağ Azərbaycanın tərkibində saxlansın.
- Qarabağın Dağlıq hissəsi Ermənistanın tərkibinə verilsin.

Zaqafqaziya bürosunun ilk qərarı belə olmuşdur: “Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibinə verilsin”.

İ.V.Stalin bu iclasda iştirak etsə də, səsverməyə qoşulmayıb. Əslində, məsələ qabaqcadan həll edildiyindən onun səsvermədə iştirakına ehtiyac qalmayıb, çünki iclasda azərbaycanlı kimi yalnız Nəriman Nərimanov iştirak edib və o, tək qalıb. İclasda iştirak edənlərin adlarına fikir versək çox şey aydın olar:

Q.K.Orconikidze (sədr), İ.V.Stalin, F.İ.Maxaradze, S.M.Kirov, N.N.Nərimanov, A.F.Myasnikyan, A.Nazaretyan, M.Oraxelaşvili, Y.P.Fiqatner. N.Nərimanovdan başqa onların hamısı Azərbaycanı sevməyən və buna görə də erməniləri dəstəkləyən adamlardır. Azərbaycan torpaqlarının taleyini 1921-ci il kimi qarışıq bir vaxtda məhz onlar həll edirdilər. Nəriman Nərimanov iclasda iştirak etsə də tək qalmış, buradakı daşnak hiyləgərliyini görüb, məkrli niyyətlərini duyduğuna görə, büronun qərarı ilə razılaşmayaraq məsələnin yenidən müzakirə olunmasını rəsmi tələb etmişdir: “Qarabağ məsələsinin Azərbaycan üçün əhəmiyyətini nəzərə alaraq onun FKP(b) Mərkəzi Komitəsinə çıxarılmasını vacib hesab edirəm”.

Zaqafqaziya bürosu N.Nərimanovun yuxarıdakı müraciətinə baxaraq onun FKP MK-nın müzakirəsinə verilməsi barədə qərar qəbul etmişdir.

FKP (b) Qafqaz bürosu iyulun 5-də, yəni bir gün sonra Qarabağ məsələsini yenidən müzakirəyə çıxarır və son qərarını qəbul edir. Qafqaz bürosunun 5 iyul tarixli qərarı belədir: Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində saxlansın.

Ermənilər bütün yazılarında 4 iyul qərarının ya adını çəkmir, ya da onu tamamilə təhrif edərək “Ermənistanın tərkibinə verilsin” əvəzinə “Ermənistanın tərkibində saxlansın” şəklinə salırlar. “Ermənistanın tərkibinə verilsin” və “Ermənistanın tərkibində saxlansın” cümlələrinin məna fərqi onlara tam aydındır. Ona görə də ermənilər FKP (b) Qafqaz bürosunun 5 iyul tarixli son qərarında “Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində saxlansın” cümləsindəki “saxlansın” sözünü “verilsin” eləməklə tarixi həqiqəti kökündən təhrif etmiş, onu öz istəklərinə uyğunlaşdırmışlar. Ermənilər bu yolla dünya ictimaiyyətində yanlış fikir formalaşdırırlar ki, guya Dağlıq Qarabağ Ermənistanın olub, onu nə vaxtsa Azərbaycana birləşdiriblər.

Erməni təbliğat maşını bu gün də gecə-gündüz işləyir və tarixi həqiqətləri, rəsmi sənədləri kobudcasına, hətta belə demək olarsa, vəhşicəsinə saxtalaşdıraraq dünya ictimaiyyətində yanlış fikirlər formalaşdırırlar. Onlar bu işə də çoxdan başlayıblar. 1978-ci ildə erməni yazarları Moskva mətbuatını “Türkmənçay” müqaviləsinin 150 illiyi ilə bağlı saxta yazılarla doldururlar. Tarixi sənədləri saxtalaşdıraraq, guya 1828-ci ildə “Türkmənçay” müqaviləsinə əsasən Ermənistanın Rusiyaya birləşdirilməsi haqqında görünməmiş yalançı təbliğat aparırlar. Tarixi həqiqətlərə dərindən bələd olan, hətta “Türkmənçay” müqaviləsi ilə Azərbaycanın ikiyə bölünüb, Quzey hissəsinin Rusiyaya birləşdirildiyini gözəl bilən rusiyalı alimlər ermənilərin Azərbaycan sözlərinin yerinə Ermənistan yazdıqlarına da göz yumurlar. Azərbaycan alimləri də bu işlərə baş qoşub, “ağrımayan başlarına yaş dəsmal bağlamaq” istəmirlər.

Burada bircə faktı diqqətə çatdırmaq bəs eləyir. 1978-ci ildə Marietta Şaginyan “Literaturnaya qazeta”da çap olunmuş məqaləsini “Tarixdə mühüm tarix” (Ermənistanın Rusiyaya daxil olmasının 150 illiyi) adlandırmışdır. Müəllif Azərbaycan sözlərinin yerinə Ermənistan yazmaqla bütün tarixi faktları saxtalaşdırmışdır.

Ukraynalı alim Aleksandr Merejko “Dağlıq Qarabağ məsələsi və beynəlxalq hüquq” adlı çox dəyərli bir kitab yazır. Həmin nəşr 2013-cü ildə Kiyevdə, 2014-cü ildə Bakıda “Azərnəşr”də çap olunur. Kitab bütün hüquq normaları nəzərə alınmaqla yüksək elmi səviyyədə yazılmışdır. Onu da qeyd edək ki, A.Merejko beynəlxalq hüquq üzrə dünyanın tanınmış mütəxəssislərindəndir. Kiyevdə Milli Linqvistika Universitetinin Hüquq kafedrasının müdiri, Polşanın Krakov şəhərindəki Modjevski adına Universitetin professorudur. Polşada, ABŞ-da, Qazaxıstanda, hətta Ermənistanda da beynəlxalq hüquqdan mühazirələr oxuyub. A.Merejko əlində olan sənədləri beynəlxalq hüquq normaları əsasında araşdıraraq Dağlıq Qarabağın heç vaxt Ermənistanın tərkibində olmadığını sübut etmişdir. Onun bütün araşdırmalarının sonu yalnız bir fikrə gətirib çıxarır ki, Dağlıq Qarabağ həmişə Azərbaycanın tərkibində olub, heç vaxt ondan ayrılmayıb.

A.Merejkonun kitabında da FKP(b) Qafqaz bürosunun 4 və 5 iyul 1921-ci il tarixli qərarlarına toxunulur. Təəssüf ki, müəllif qərarın əslinə yox, S.Avakyanın kitabına istinad edib. S.Avakyan yazır ki, guya 1921-ci ilin iyulunda Dağlıq Qarabağ Azərbaycana verilib. Əgər A.Merejko FKP(b) Qafqaz bürosunun qərarının əsli ilə tanış olsaydı, onda ermənilərin nə qədər mahir saxtakarlıq ustası olduqlarını daha yaxşı bilərdi, əsl həqiqətin üstünə aydın işıq salardı. Ümumiyyətlə, A.Merejko Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranma tarixi haqqında sənədlərin toplandığı “Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranma tarixinə dair” kitabı ilə tanış olsaydı, həqiqəti güzgü kimi görərdi.

A.Merejkonun kitabında verilmiş ikinci fakt saxtakarlığı Dağlıq Qarabağda əhalinin sayı və etnik tərkibi ilə bağlıdır. Erməni mənbələrindən götürülmüş bu məlumata görə, guya 1989-cu ilin siyahıyaalınmasında Dağlıq Qarabağda 189 min 29 nəfər əhali olub ki, onun da 145 min 450-si erməni, 40 min 632 nəfəri azərbaycanlı və 2 min 417 nəfəri slavyan xalqlarıdır. Sözsüz ki, bu rəqəm xeyli şişirdilib. Birincisi, 1989-cu ildə Dağlıq Qarabağda müharibə gedirdi, dünyanın bir çox yerindən gəlmiş ermənilər və muzdlular Ermənistan ordusunun tərkibində Azərbaycana qarşı vuruşurdular. İkincisi, 1989-cu ildə azərbaycanlı əhalinin bir hissəsi Dağlıq Qarabağdan çıxarılmışdı. Üçüncüsü, hələ sovetlər dönəmində Bakıda, Gəncədə və Azərbaycanın digər şəhərlərində yaşayan erməniləri eyni vaxtda həm də Dağlıq Qarabağda, xüsusilə Xankəndidə pasport qeydiyyatına alıb bu yolla Dağlıq Qarabağda ermənilərin sayını süni şəkildə artırırdılar. Dördüncüsü, Dağlıq Qarabağ Azərbaycanın ərazisidir. Orada siyahıyaalmanı yalnız Azərbaycan apara bilərdi. 1989-cu ildə Dağlıq Qarabağda elə bir çətin durum var idi ki, burada heç vaxt düzgün siyahıyaalma aparıla bilməzdi. Ermənilərin şişirtmələrini çıxsaq, Dağlıq Qarabağda heç vaxt 60 mindən artıq erməni yaşamayıb.

Dağlıq Qarabağla bağlı erməni təbliğatını qulaqardına vurmaqla biz çox şeyləri uduzmuşuq. Vaxtında həqiqətləri dünyaya çatdırmamışıq, gözləmə mövqeyi tutmuşuq, ermənilərin yalanlarının, saxtakarlıqlarının üstünü açmaq əvəzinə susmuşuq.

Bir neçə il bundan əvvəl M.N.Saplinin iki cilddən ibarət “Ümumdünya sivilizasiyalar tarixi” adlı kitabı çap olunub. Bu kitab təkrar-təkrar nəşr edilərək geniş yayılıb. Kitabda həm Azərbaycana, həm də Ermənistana yer ayrılıb. Bu toplunu oxuyanda adama elə gəlir ki, əvvəlcə Azərbaycan haqqında faktlar əsasında irihəcmli bir yazı qələmə alınmış, sonra dörd yerə bölünərək bir payı Azərbaycan adı ilə saxlanılmışdır. Qalan dörddə üç hissəsində isə Azərbaycan sözünün yerinə erməni və ya Ermənistan sözləri yazılaraq kitaba daxil edilmişdir. Bu fikri təsdiqləmək üçün bircə faktı xatırlatmaq bəs eləyir. Müəllif Azərbaycana aid bölmədə “Türkmənçay” müqaviləsinin adını da çəkmir. Lakin Ermənistan bölməsində yazır: “Rusiya Şərqi Ermənistanı işğal etmişdir”. “Türkmənçay” müqaviləsinə əsasən Şərqi Ermənistan Rusiyaya birləşdirilmişdir”. Halbuki Türkmənçay müqaviləsinə əsasən Azərbaycan Rusiya və İran arasında ikiyə bölünüb. Bunu hamı yaxşı bilir. “Türkmənçay” müqaviləsində Ermənistandan söhbət gedə bilməzdi, çünki o zaman Ermənistan adında bir dövlət yox idi. Müqavilədə də erməni və Ermənistan sözləri yoxdur.

M.N.Saplinin kitabında “Naxçıvan Azərbaycana verilmişdir”, “Erməni vilayəti” olan Arsaq (Qarabağ) Azərbaycana verilmişdir” kimi cümlələr kifayət qədərdir. M.N.Saplin Qarabağın guya Azərbaycana verilmə tarixini də göstərmişdir: 05.07.1921.

Yenə söhbət FKP(b) MK Qafqaz bürosunun 4 və 5 iyul 1921-ci il tarixli qərarlarından gedir. Müəllif 4 iyul 1921-ci il tarixdəki iclasa və onun qərarına toxunmur, ona göz yumur, 5 iyul 1921-ci il tarixli qərarı isə saxtalaşdırıb “Azərbaycanın tərkibində saxlansın” cümləsini “Azərbaycana verilsin” şəklinə salmaqla belə fikir yaradır ki, guya Dağlıq Qarabağ Ermənistanın tərkibində olub, Qafqaz bürosu onu alıb Azərbaycana verib.

M.N.Saplinin kitabını oxuyan hər kəsdə belə bir təəssürat yaranır ki, Azərbaycan və Ermənistanla bağlı materialları ermənilər özləri hazırlayıb müəllifə veriblər. O da hazır materialı götürüb kitabına daxil edib. Yoxsa M.N.Saplin özü tarixi faktları bu dərəcədə saxtalaşdıra bilməzdi. Bunun üçün mütləq erməni olmaq lazımdır.

Tarixin obyektiv tədqiqi göstərir ki, 1920-ci ilə qədər ermənilərin heç vaxt dövləti olmayıb. Onlar ilk dövlətlərini 1920-ci ildə Rusiyanın havadarlığı ilə Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində yaradıblar. Bu dövlət indiki Ermənistandır. Bu torpaqlarda 1828-ci ilə qədər bir dənə də erməni qəbri, erməni dilinə məxsus toponim olmayıb. Çünki ermənilər bu torpaqlara 1828-ci ildən sonra kütləvi şəkildə köçürülüblər. Ermənilər Azərbaycan torpaqlarına köçürüldükləri ilk gündən türk xalqına qarşı soyqırımına və terrora başlayıblar. İndiki Ermənistan ərazisində 1813-cü il Gülüstan müqaviləsinə qədər bir nəfər də erməni yaşamayıb. Burada ancaq türklər yaşayıblar. Bu gün həmin torpaqlarda bir nəfər də türk yoxdur. Ermənilərin törətdikləri soyqırımın və terrorun son nəticəsi budur.

***İslam SADIQ,***
***filologiya elmləri doktoru***



## Ermənilərin 24 aprel uydurması, Azərbaycanın 2 aprel həqiqəti

*Əvvəli 5-ci səh.*

### Soyqırımı cinayətlərini əslində ermənilər törədiblər

Beləliklə, tarix sübut edir ki, ermənilər soyqırımına məruz qalmayıblar. Əksinə, sərsəm “böyük Ermənistan” xülyasını gerçəkləşdirmək üçün XIX əsrin sonlarından başlayaraq ən dəhşətli soyqırımı cinayətləri həyata keçiriblər. Xüsusən Qafqazda ermənilər tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalıb. Mərhələ-mərhələ keçirilən soyqırımı cinayətləri nəticəsində azərbaycanlılar yaşadıqları tarixi torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalıb, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb, viran edilib.

XX əsrin əvvəllərində, xüsusən 1905-1907-ci illər hadisələri zamanı Bakıda, Qarabağda və digər bölgələrdə dinc azərbaycanlılara qarşı həyata keçirilən qətliamlar ermənilərin məkrli niyyətlərini reallaşdırmaq üçün başladıqları soyqırımı siyasətinin ilkin mərhələsi idi. 1915-ci ildən 1920-ci ilədək olan dövrə təsadüf edən mərhələdə daşnak-bolşevik birləşmələri Bakıda və Azərbaycanın bir çox bölgələrində misli görünməmiş soyqırımı cinayətləri törədiblər. Bakıda, Qarabağda, Şamaxıda, Zəngəzurda, Qubada, Lənkəranda, Naxçıvanda 50 mindən artıq azərbaycanlını qətlə yetiriblər. Sovet illərində isə yüz minlərlə azərbaycanlı öz tarixi torpağından, indi Ermənistan adlandırılan ərazilərdən didərgin salınıb. Bununla da Ermənistan demək olar ki, monoetnik bir respublikaya çevrilib.

Etnik təmizləmə siyasətini başa çatdıran ermənilər ötən əsrin 90-cı illərindən başlayaraq Azərbaycanda terrorçuluq dalğasını genişləndirdilər, soyqırımı siyasətinin növbəti mərhələsinə rəvac verdilər. 1992-ci il fevralın ortalarında Xocavənd rayonunun Qaradağlı kəndində soyqırımı həyata keçirdilər. Həmin il fevralın 25-də isə sovet ordusundan qalma 366-cı alayın köməyi ilə Xocalıya hücum edərək dinc azərbaycanlılara vəhşicəsinə divan tutdular, daha bir dəhşətli soyqırımını törətdilər.

Ermənilər 90-cı illərdə Bakı şəhərində və Azərbaycanın ayrı-ayrı yerlərində, qatarlarda, metroda qanlı terror aksiyaları həyata keçirdilər. Xalqımıza qarşı aparılan soyqırımı siyasətinin xronologiyasını xatırlayarkən törədilən vəhşilik və cinayətlərin miqyası, metodologiyası qəzəb doğurmaya bilmir.

Ermənilər tərəfindən aparılan soyqırımı, deportasiya və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan 1918-1929-cu illərdə 29,8 min kvadratkilometr ərazisini itirib. 1991-1993-cü illərdə isə 20 faizə qədər ərazimiz işğal edilib. Tarixi şərait səbəbindən uzun illər baş vermiş hadisələrə, xalqımızın faciələrinə obyektiv qiymət vermək mümkün olmayıb. Ermənilərin işğalçılıq və etnik təmizləmə siyasəti, azərbaycanlılara qarşı soyqırımı cinayətləri tarix boyu davam etsə də, imperiya əsarəti xalqımıza qarşı baş verənlərin qarşısının alınmasına və araşdırılmasına imkan verməyib. Yalnız Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ermənilərin Azərbaycan dövlətinə və xalqına qarşı işğalçılıq və soyqırımı cinayətlərini araşdırmaq, əsl həqiqətləri dünyaya çatdırmaq, hüquqi-siyasi qiymət vermək mümkün oldu. Xüsusilə qeyd etməliyik ki, 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən dolğun və hərtərəfli hüquqi-siyasi qiymətdir. Bu mühüm sənəddə ilk dəfə olaraq azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınların - soyqırımlarının rəsmən adı çəkilib, Cənubi Qafqaz miqyasında xalqımıza qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açıqlanıb.

### İlham Əliyev Ermənistanı küncə sıxışdırıb

Bütövlükdə tarixi mənbələr sübut edir ki, dünya erməniliyinin əlində bayraq etdiyi soyqırımı iddiaları əslində yalandan, sərsəmlədən başqa bir şey deyil. Əsl həqiqətlər ermənilərin öz niyyətlərini həyata keçirmək üçün Azərbaycan xalqına qarşı keçirdikləri soyqırımı cinayətləridir.

Bu gün yeni həqiqətlər də meydana çıxır. Ermənilərin xalqımıza qarşı törətdikləri XX əsr boyu faciələr xüsusən yaxın tariximizdə baş versə də, beynəlxalq birlik uzun illər bu barədə susub. Lakin Azərbaycanın yürütdüyü hücumçu siyasətin nəticəsi olaraq bu məsələdə artıq dönüş yaranıb. Bu mənada əsas həqiqətlərdən biri odur ki, məhz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın həyata keçirdiyi hücumçu diplomatiya təcavüzkar Ermənistanı çıxılmaz vəziyyətdə qoyub. Azərbaycan Prezidenti beynəlxalq səviyyədə ardıcıl və müntəzəm iş aparır, onilliklər boyu formalaşmış stereotipləri və yanlış siyasi yanaşmaları dəyişdirir. Prezident İlham Əliyev iştirak etdiyi bütün beynəlxalq təşkilatların tədbirlərində çıxışları zamanı əsas vurğunu torpaqlarımızın Ermənistan tərəfindən işğalı faktı üzərinə qoymaqla həqiqətləri dayanmadan, ardıcıl, sistemli şəkildə dünya ictimaiyyətinin diqqətinə çatdırır.

Təsadüfi deyil ki, artıq erməni diasporu, Ermənistanın lobbiçiliyi ilə məşğul olan bəlli dairələr əvvəlki kimi beynəlxalq ictimaiyyəti öz yalanlarına inandıra bilmirlər. Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində həm də Ermənistanın iqtisadi blokadası dərinləşib və Azərbaycan aparılan sülh danışıqlarında mühüm beynəlxalq siyasi və diplomatik üstünlük əldə edib.

Azərbaycanın inkişafı və beynəlxalq mövqelərinin güclənməsi də son illərin əsas reallıqlarından biridir. Dünyanın enerji təhlükəsizliyinə, terrorizmlə mübarizəyə böyük töhfələr verən, inkişafa nail olan Azərbaycan həm dünya birliyində özünə layiqli yer tutub, həm də regionun aparıcı dövlətinə çevrilib. Təbii ki, bunlar dünyanın ölkəmizi daha yaxından tanıması, Azərbaycan həqiqətlərinin qəbul edilməsi, o cümlədən Dağlıq Qarabağ danışıqlarında respublikamızın üstün mövqeyinin təmin olunması baxımından vacib amillərdir.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr və fondun vitse-prezidenti Leyla Əliyevanın başlatdığı “Xocalıya ədalət!” kampaniyası da effektiv nəticələr verməkdədir. Bunların nəticəsidir ki, Xocalıda xalqımıza qarşı törədilənləri soyqırımı cinayəti kimi tanıyan dövlətlərin sayı artmaqdadır.

Bütün bunlar təsdiqləyir ki, Prezident İlham Əliyevin Azərbaycan həqiqətlərinin yayılması istiqamətində müəyyən etdiyi xətt özünü doğruldur. Bütövlükdə Azərbaycan Prezidentinin uğurlu diplomatik gedişləri nəticəsində Ermənistanın beynəlxalq səviyyədə təcrid olunması daha da sürətlənib və dünya artıq erməni yalanlarına inanmır.

### Aprel zəfəri Silahlı Qüvvələrimizin gücünün praktik təsdiqi oldu

4 il əvvəl, aprel ayının əvvəllərində Azərbaycan Ordusunun cəbhə xəttində erməni təxribatına qarşı həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar isə yeni bir həqiqəti ortaya qoydu. Tarixə “Aprel döyüşləri” kimi düşən bu hadisələrdə Azərbaycan Ordusu erməni hərbi birləşmələrinə sarsıdıcı zərbə vurdu. İşğal altında olan minlərlə hektar ərazimiz, o cümlədən strateji Lələtəpə yüksəkliyi düşməndən azad edildi, Cocuq Mərcanlı kəndi üçün təhlükə tamamilə aradan qaldırıldı.

Həmin günlərdə erməni hərbi birləşmələrinin Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə basqın etmək cəhdləri, kəndləri artilleriya atəşinə tutmaları, dinc əhalini hədəfə almaları, hər şeydən öncə, Ermənistanın təcavüzkar və işğalçılıq siyasətinin növbəti təsdiqi oldu. Bir daha sübut edildi ki, rəsmi Yerevan Dağlıq Qarabağ probleminin yoluna qoyulmasında konstruktiv mövqe ortaya qoymaqda maraqlı deyil. Lakin bunun qarşılığında Azərbaycanın gücünü gördülər. Başa düşdülər ki, Azərbaycan ərazi bütövlüyünün bərpasını sadəcə diplomatik danışıqlarla təmin etmək niyyətində deyil.

Hərb tariximizə qızıl hərflərlə yazılan 2016-cı ilin aprel hadisələri Silahlı Qüvvələrimizin gücünün və peşəkarlığının praktik təsdiqi oldu. Çünki ordumuz əlverişsiz mövqelərdən əkshücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək. Hadisələr həm də Azərbaycan əsgərinin vətənpərvərliyini, döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu, həmçinin xalqımızın həmrəyliyini, heç vaxt işğalla barışmayacağını göstərdi.

Aprel döyüşləri həm də mühüm hərbi qələbə olmaqla yanaşı, beynəlxalq arenada diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb etdi. Dünya gördü ki, hərbi toqquşmalar hər an yenidən alovlana bilər. Lakin ən əsası, sübut olundu ki, Azərbaycan Ordusu baş verə biləcək müharibəni qısa müddətdə qələbə ilə başa çatdırmağa qadirdir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# İslam dünyası mübarək Ramazan ayını qarşılayır

## Bu axşam müsəlmanlar niyyət edəcəklər

Müsəlman dünyası müqəddəs Ramazan ayı ərəfəsindədir. Möminlərin on bir aydır səbirsizliklə gözlədikləri məqam gəlib çatır. Bu gün axşam müsəlmanlar mübarək Ramazan ayında tutacaqları oruc üçün niyyət edəcək, sabah isə oruc tutmağa başlayacaqlar.



Hicri qəməri təqviminin doqquzuncu ayında - Ramazan ayında oruc tutmaq hər bir müsəlman üçün fərzdir. Ağıllı, həddi-büluğa çatmış, oruc tutmaq üçün üzrlü səbəbi olmayan hər bir mömin oruc tutmalıdır. Müsəlmanlar mübarək ay boyunca günün işıqlı vaxtında oruc tutub yemək-içməkdən və cinsi əlaqədən uzaq qalacaqlar.

Oruc İslamla başlamamışdır; insanlar İslamdan əvvəl də oruc tutmuşlar. Bu, Qurani-kərimin "Bəqərə" surəsində açıq-aşkar ifadə edilmişdir: "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) pis əməllərdən çəkinəsiniz!.. (Oruc tutmaq) sayı müəyyən olan (bir ay) günlərdir. (Bu günlərdə) sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə (hər günün əvəzində) bir yoxsulu doyduracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə (həm oruc tutub, həm də fidyə verərsə), bu, onun üçün daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!"

Oruc tutmaq Uca Yaradanın buyuruğu olmaqla bərabər, böyük əxlaqi-mənəvi, sosial əhəmiyyətə malikdir. Hədisi-şərifdə deyilir ki, "oruc sipərdir", yəni müsəlmanı pis əməllərdən qoruyan gizli silahdır. Oruc tutan insan qeybət qılmaq, söyüş söymək, dava-dalaş salmaq kimi naqis əməllərdən çəkinməlidir.

Ramazan ayında insanlar arasında qarşılıqlı məhəbbət, hörmət, şəfqət, dostluq, qardaşlıq, həmrəylik münasibətləri hökm sürməlidir. Oruc tutanlar düşmənçiliyə, umu-küsüyə son qoymalı, bir-birinə münasibətdə mərhəmətli olmalı, bir-birini bağışlamağı bacarmalıdırlar. Allah-təala oruc tutmağı buyurmaqla bütün insanların dinc, mehriban şəraitdə yaşamasının zəruriliyini xatırladır.

Ramazan müsəlmanın mənəvi inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Məlumdur ki, yemək-içmək, cinsi əlaqə kimi cismani ehtiyaclar insan həyatında güclü amillərdəndir. İlin bir ayında oruc tutmaqla müsəlman cismani ehtiyacların hökmranlığından azad olur və mənəvi-ruhi cəhətdən təkmilləşmək imkanı əldə edir.

Oruc insanda dözüm, iradə və təmkin tərbiyə edir, nəfsə hakim olmaq vərdişləri aşılayır. Ramazan ayında oruc tutmağı buyuran Tanrı insanı sınağa çəkir: varlı kasıbın sosial vəziyyətini dərk edir, ona münasibətdə xeyirxah olmağın vacibliyini anlayır. Oruc insanı yaxşı işlər görməyə sövq etməklə yanaşı, pis əməllərdən də çəkindirir.

Aparılmış çoxsaylı araşdırmalar göstərir ki, Ramazan ayı boyunca müsəlman ölkələrində cinayətkarlığın səviyyəsi açıq-aşkar aşağı düşür. Eyni zamanda bir ay oruc tutmaq insanın sağlamlığında mühüm rol oynayır. Peyğəmbərimiz Məhəmməd səlavatüllah buyurmuşdur: "Oruc tutun ki, sağlam olasınız!"

Qədim zamanlardan bəri oruc insanın sağlamlığını möhkəmlətmək, müxtəlif xəstəlikləri müalicə etmək üçün təbii vasitə kimi nəzərdən keçirilir. Antik dövrdə Sokrat, Platon, Aristotel kimi böyük mütəfəkkirlər müəyyən müddət ac qalmağı, başqa sözlə, oruc tutmağı tövsiyə etmişlər.

Müasir alimlər də yeməkiçməkdən imtina edilməklə bir çox xəstəliklərin müalicəsində uğurlu nəticələr əldə etmişlər. Həkimlər təsdiqləyirlər ki, oruc tutmaq hamı üçün, hətta sağlam adamlar üçün həyati zərurətdir. İnsan qida qəbul edərkən, nəfəs alarkən həm də külli miqdarda toksin maddə qəbul edir. Bu zərərli maddələri bədəndən oruc tutmaqla kənarlaşdırmaq mümkün olur. Oruc tutarkən mədə, bağırsaqlar, qara ciyər və həzm prosesində iştirak edən digər orqanlar istirahət edir. Bu isə həzm sisteminin yaxşılaşmasına gətirib çıxarır. Qan təmizlənir, beyin daha yaxşı işləyir. İnsanın cismində zəif, xəstə, yaxud zədələnmiş hüceyrələr yeniləri ilə əvəzlənir. Ümumiyyətlə, insan orqanizminin elə bir üzvü yoxdur ki, orucun müsbət təsirinə məruz qalmasın.

Oruc bel, onurğa, boyun ağrılarının sağalmasına kömək edir. Norveçdə aparılmış elmi tədqiqat nəticəsində məlum olmuşdur ki, qida qəbulundan imtina oynaq iltihabının müalicəsində effektiv vasitədir - bir şərtlə ki, xəstə dörd həftə ac qalsın. Bu isə təxminən Ramazan orucunun müddətinə bərabərdir! Həkimlər mədə-bağırsaq xəstəliklərindən müalicə zamanı da elə bu qədər pəhriz saxlamağı məsləhət görürlər.

Qeyri-müsəlman ölkələrində aparılmış və on minlərlə xəstəni əhatə etmiş araşdırmalar sübuta yetirmişdir ki, oruc bir çox digər xəstəliklərin, o cümlədən yüksək qan təzyiqinin, qara ciyər, dəri xəstəliklərinin, xüsusilə allergiya və xroniki ekzemanın və s. müalicəsinə kömək edir.

Orucun mənəvi-əxlaqi və fiziki faydaları çoxdur. Eyni zamanda yaddan çıxarmaq olmaz ki, Ramazanda oruc hansısa fayda naminə yox, Allahın əmrini yerinə yetirib Onun rizasını qazanmaq üçün tutulur.

Bu mübarək ayda Allahtəalaya edilən dualar tez qəbul olunandır. Vətən torpağının düşmən tapdağından qurtulması, didərgin həmvətənlərimizin ev-eşiyinə qayıtması üçün dua edək! Xalqımızın, bəşəriyyətin qarşı-qarşıya qaldığı koronavirus adlı gözəgörünməz düşmənə qalib gəlməsi üçün dua edək!

Allah İslam ümmətinin mübarək ayda tutacağı orucu və edəcəyi duaları qəbul eləsin! Amin!

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Pandemiyadan zərər çəkən sahibkarlıq subyektlərinə vergi güzəştləri olunacaq

*Əvvəli 1-ci səh.*

S.Musayeva qeyd edib ki, pandemiyadan zərər çəkmiş sahibkarlıq fəaliyyəti sahələrinə şəhərlərarası və rayonlararası sərnişindaşıma fəaliyyətini həyata keçirən subyektlər, yerləşdirmə vasitələri hesab olunan hotel, hostel kimi təsərrüfatlar, ictimai iaşə fəaliyyəti, sərgilərin təşkili, səhnə, istirahət və əyləncə (oyun), kinoteatr, teatr, muzey və konsert zallarının fəaliyyəti və s. misal göstərilə bilər. Həmçinin tədris müəssisələri, o cümlədən məktəbəqədər təhsil müəssisələri, hazırlıq mərkəzləri də zərər çəkən müəssisələr kimi müəyyənləşdirilib.

Qanun layihəsində pandemiyadan bilavasitə zərər çəkən sahələr üzrə əmlak və torpaq vergiləri üzrə 2020-ci il üçün vergidən tam azadolma, mənfəət vergisi üzrə isə 75 faizlik güzəşt nəzərdə tutulur. Qeyd olunan azadolmalarla yanaşı, spesifik sahələr üzrə mövcud olan vergi rejimləri nəzərə alınmaqla xüsusi güzəştlər təklif edilir. Ölkə daxilində sərnişindaşıma fəaliyyəti həyata keçirən subyektlər, habelə ictimai iaşə fəaliyyəti göstərən subyektlər üçün sadələşdirilmiş verginin xüsusi rejimi mövcuddur. Həmin hüquqdan istifadə edən sahibkarlar üçün də sadələşdirilmiş verginin dərəcəsi 50 faiz azaldılacaq. Pandemiyadan zərər çəkən sahibkarlıq subyektlərinin iqtisadi aktivliyinin kifayət qədər aşağı düşdüyü, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarları əsasında bu sahələrdə fəaliyyətin məhdudlaşdığı nəzərə alınaraq, həmin fəaliyyət sahələri üzrə sahibkarlıq subyektləri tərəfindən 2020-ci ildə 2019-cu ilin nəticələrinə görə cari vergi ödəmələrinin təxirə salınması və 2020-ci ildə bütövlükdə mənfəət (gəlir) vergisi üzrə arayışların verilməsi və ödəmələrin həyata keçirilməsinin ləğv edilməsi təklif olunur. Digər tərəfdən, sahibkarlıq subyektlərinin 2019-cu ilin nəticələri üzrə mənfəət (gəlir) vergisinin bəyannamələrinin təqdim olunması və ödənişlərin edilməsinin də 1 sentyabr 2020-ci llədək təxirə salınması nəzərdə tutulur.

Vergi Məcəlləsinə dəyişikliklər layihəsində mikro sahibkarlıq subyektləri ilə bağlı müddəalar da yer alır. Layihəyə əsasən, mikro sahibkarlıq subyektlərinin sadələşdirilmiş vergi öhdəlikləri 50 faiz aşağı salınacaq. Həmin subyektlər tərəfindən 2020-ci ilin birinci və ikinci rübü üzrə sadələşdirilmiş, mənfəət (gəlir) və əmlak vergiləri üzrə hesabatların verilməsi və hesablanmış verginin büdcəyə ödənilməsinə də 1 sentyabr 2020-ci il tarixinə kimi tətil verilməsi nəzərdə tutulur.

Baş idarə rəisi bildirib ki, ölkədə fəaliyyət göstərən istənilən sahibkarın pandemiyanın qarşısının alınması ilə bağlı profilaktik tədbirlərə və dezinfeksiyaya çəkilən xərclərinin gəlirdən çıxarılması da Vergi Məcəlləsinə təklif edilən dəyişikliklər sırasındadır. O, sahibkarlıq subyektləri üçün nəzərdə tutulmuş dəstək tədbirləri çərçivəsində sosial sığorta yükünün azaldılması ilə bağlı təkliflərin də olduğunu qeyd edib. Bildirib ki, bununla bağlı "Sosial sığorta haqqında" qanuna da dəyişikliklər hazırlanıb və bu dəyişikliklər də sahibkarlıq subyektləri, biznes icması və hökumət üzvləri ilə geniş müzakirələr aparıldıqdan sonra Milli Məclisə təqdim edilib.

Qeyd olunub ki, sosial sığorta yükünün azaldılması məqsədilə sahibkarlıq fəaliyyəti həyata keçirən şəxslər üzrə sosial sığorta dərəcəsinin azaldılması təklif edilir. Hazırda xidmətlərin göstərilməsini və işlərin görülməsini həyata keçirən fərdi sahibkarlar tərəfindən büdcədənkənar dövlət fonduna ödənilən sosial sığortanın dərəcəsi tikinti və ticarət sektorunda minimum əməkhaqqının 50 faizi, digər sahələrdə 25 faizi həddindədir. Pandemiyanın sahibkarlıq subyektlərinin fəaliyyətində yaratdığı çətinliklər nəzərə alınaraq, təqdim olunan qanun layihəsinə əsasən, 1 yanvar 2021-ci il tarixədək tikinti sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sosial sığorta yükünün 25 faizə, digər sahibkarlıq subyektlərində isə 15 faizə endirilməsi nəzərdə tutulur. Qanun layihəsində 2021-ci ildən sonra da sahibkarlıq subyektlərinin sosial sığorta yükünün aşağı salınması ilə bağlı müddəalar vardır.

Diqqətə çatdırılıb ki, ötən ilin sentyabr ayından ölkə üzrə minimum əməkhaqqının məbləği 250 manata qaldırılıb və bu geniş sosial layihə çərçivəsində əhalinin gəlirlərinin artırılması müsbət hal olmaqla yanaşı, sahibkarlıq subyektlərinin ölkə üzrə minimum aylıq əməkhaqqının müəyyən faiz nisbəti üzrə müəyyən olunan sosial sığorta ödənişlərinin həyata keçirilməsində bəzi çətinliklər yaradıb. Odur ki, təqdim olunan qanun layihəsində 1 yanvar 2021-ci il tarixindən 2026-cı il tarixədək olan dövr ərzində fərdi qaydada sahibkarlıq fəaliyyəti həyata keçirən subyektlərin də sosial sığorta yükünün aşağı salınması təklif edilib. Tikinti sektorunda sosial sığorta yükü 50 faiz saxlanılıb, digər sahibkarlıq sahəsində fəaliyyət göstərən subyektlərdə isə sosial sığorta yükü 25 faizə endirilib. Bununla yanaşı, sahibkarlıq subyektinin fəaliyyət göstərdiyi ərazidən asılı olaraq, sosial sığorta yükünün hesablanması zamanı diferensiallaşdırmanın tətbiqi nəzərdə tutulur.

Bildirilib ki, təqdim olunan qanun layihəsində, həmçinin müəyyən sahibkarlıq fəaliyyəti sahələrinə xüsusi təşviqlər əksini tapıb. Belə ki, sabit qəbz almaqla öz fəaliyyətini həyata keçirən mikro sahibkarların, sərnişindaşıma işini həyata keçirən və fərqlənmə nişanı əsasında fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sosial sığorta yükü də xeyli aşağı salınacaq. Həmçinin kənd təsərrüfatı təyinatlı torpağı olan mülkiyyətçilər üçün ailədə əməkqabiliyyətli hər nəfərə görə hesablanan sosial sığorta dərəcəsinin də aşağı salınması nəzərdə tutulur.

Həm Vergi Məcəlləsinə, həm də "Sosial sığorta haqqında" qanuna təklif edilən dəyişikliklər koronavirus pandemiyası və iqtisadi aktivliyin aşağı düşməsi nəticəsində sahibkarlıq subyektlərinin üzləşdikləri çətinliklərin azaldılması, onların maliyyə yükünün dövlət dəstəyi nəticəsində minimallaşdırılması istiqamətində əhəmiyyətli rol oynayacaq.

***R.MƏMMƏDLİ***
***"Azərbaycan"***

# Dövlət sərhədinin etibarlı mühafizəsi təmin edilir

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir.

2020-ci ilin 22 aprel tarixində saat 15:30 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" Sərhəd Dəstəsinin Yardımlı rayonunun Daşkənd kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində 3 nəfər naməlum şəxsin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozması aşkar olunmuşdur.

Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılmış, xidməti ərazi qapadılmışdır. Sərhəd naryadı tərəfindən "Dayan" əmri verilərək havaya xəbərdarlıq atəşi açılmışdır. Lakin sərhəd pozucuları əmrə tabe olmamış, sərhəd naryadına qarşı odlu silahdan atəş açaraq sərhədçilərin həyatına qəsd etmişlər.



Sərhəd naryadı tərəfindən "Dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq silah tətbiq olunmuş və sərhəd pozucularından 1-i yaralanmışdır. Digər sərhəd pozucuları ərazinin sıx meşəlik və hava şəraitinin dumanlı olmasından istifadə edərək geri qaçmışlar. Yaralanmış sərhəd pozucusuna ilkin tibbi yardım göstərilərək Cəlilabad Rayon Mərkəzi Xəstəxanasına təxliyə olunmuş, lakin görülən tədbirlərə baxmayaraq həyatını xilas etmək mümkün olmamışdır.

Hadisə yerində ümumi çəkisi 2 kq olan həşiş qətranına bənzər narkotik vasitə, 1 ədəd lüləsi kəsilmiş qoşalülə ov tüfəngi, 6 ədəd patron, 1 ədəd patron gilizi aşkar olunmuşdur. Ərazidə axtarış işləri davam etdirilir.

İran tərəfinin sərhəd nümayəndəsi görüşə dəvət olunmuş, hadisə yerində görüş keçirilmişdir.

Hazırda Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" Sərhəd Dəstəsinin və Lənkəran Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən hadisə ilə əlaqədar zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

# Biləsuvarda çiyid səpini mütəşəkkil keçir



*Əvvəli 1-ci səh.*

Ölkə başçısı İlham Əliyevin kənd təsərrüfatına, o cümlədən pambıqçılığa göstərdiyi diqqət və qayğı nəticəsində 2016-cı ildən başlayaraq pambıq istehsalı yüksələn xətlə inkişaf etdirilir. Keçən il rayon üzrə 10 min 257 hektar sahədən 30 min 700 tondan çox məhsul tədarük edilmiş, hər hektarın məhsuldarlığı orta hesabla 29, 9 sentner təşkil etmişdir. Pambıqçılıqdan əldə edilən gəlir hesabına zəhmət adamlarının gün-güzəranı, sosial rifah halı yaxşılaşmışdır. Bu isə fermerləri, torpaq mülkiyyətçilərini növbəti ildə daha yaxşı işləməyə ruhlandırmışdır.

Rayonda pambıq istehsalı və tədarükü ilə məşğul olan üç təşkilat: "MKT İstehsal Kommersiya", "P-Aqro" və "Azərpambıq" MMC-lərin filialları fəaliyyət göstərir. "MKT-Biləsuvar" filialı üzrə cari ilin məhsulu üçün 3 min 350 hektarda pambıq əkilməsi planlaşdırılıb. Filial yanvar ayında 900 nəfər fermer və torpaq mülkiyyətçisi ilə müqavilə bağlayıb. Əkinçilərə lazımi kömək göstərilir. Şumun qaldırılması, torpağın malalanması prosesində şirkət həmişə onların yanında olur. Sahə aqronomları demək olar ki, gündəlik olaraq sahibkarlara baş çəkir, aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsi üçün onlara məsləhət və tövsiyələrini verirlər. Koronavirus pandemiyası ilə əlaqədar əvvəlki illərdən fərqli olaraq çiyid və ammofos gübrəsi filial tərəfindən əkinçilərə bilavasitə iş başında çatdırılmışdır. Bu da öz növbəsində fermerləri daha çox adamla təmasda olmaq problemindən azad etmişdir.

Hal-hazırda filial üzrə çiyid səpini mütəşəkkil keçir. Əkinə 35 ədəd MTZ traktoru, 35 ədəd Türkiyə istehsalı olan "Cansa" səpin aqreqatı və mala cəlb edilmişdir. Səpin zamanı hər hektara 20-25 kiloqram "BA-440" lifsiz çiyidlə birlikdə 100 kiloqram ammofos gübrəsi verilir. Alaq otları çox olan yerlərə isə "Cottenex" zəhəri səpilir. İşin düzgün təşkili nəticəsində 3 min hektar sahədə çiyid səpini başa çatdırılmışdır. Qalan az bir hissədə - 350 hektarda isə aprelin sonunadək səpini yekunlaşdırmaq üçün sahibkarlar filial işçiləri ilə birlikdə səylə çalışırlar. Məlumat üçün bildirək ki, keçən il "MKT-Biləsuvar" mahlıc çıxımına görə yüksək nəticələr əldə etmiş, xam pambıqdan 42,5 faiz keyfiyyətli mahlıc almışdır. Pambıqdan başı çıxanlar yaxşı bilirlər ki, sovetlər vaxtı bu rəqəm əlçatmaz hesab olunurdu.

"P-Aqro" MMC yeni yaradılmış istehsal sahəsidir. Buna baxmayaraq əldə etdiyi nəticələr ürəkaçandır. Cəmiyyətin baş aqronomu Rafiq Əzizovun dediklərindən məlum oldu ki, onlar cari ilin əvvəlində 447 nəfər mülkiyyətçi ilə müqavilə bağlayaraq, 2 min 300 hektarda pambıq əkib-becərməyi qərara almışlar. Bunun üçün mülkiyyətçilərə hər cür kömək göstərilmişdir.

Şəhriyar düzü deyilən yerdəyik. Burada torpağın sinəsinə min bir ümid, istək və arzu ilə toxum əkən mülkiyyətçilərdən biri - Mehdi Ağayevlə tarlada görüşürük. Ətrafda taxıl zəmiləri, yonca sahələri olduğundan hər yan yaşıllığa bürünmüşdür. Yalnız çiyid səpilən yerlər bombozdur. Sahənin kənarında dəmir borulardan qaynaqlama yolu ilə qurduğu səliqəli çardaq da mülkiyyətçinin əməyə, torpağa bağlılığından xəbər verir. Buradakı arxdan gələn su, yarpaqlanan söyüd ılıq yaz havasında başqa bir mənzərə yaradır. Görüşürük, hal-əhvalını soruşuram, sonra da söyüdün kölgəsini göstərib: - Yayda bura sərin olar, - deyirəm. O da: - Bəli, elədir, - deyir, - yoxsa 35-40 dərəcə istidən adamın nəfəsi qaralar bu düzdə. - Yenicə çəkilən arxı adlayıb traktora tərəf gedirik. Arxasında toxumsəpən aqreqat olan traktor da bizə tərəf gəlir. Yaxınlaşıb dayanır. Traktorçu kabinədən düşüb bizə yanaşır. M.Ağayev deyir ki, bu bizim Famil Muradovdur. Bacarıqlı mexanizatordur. Gördüyü işə söz ola bilməz. Beləsinə gözünün ağını yedizdirsən də, azdır. İşinin kəmiyyəti də yaxşıdır, keyfiyyəti də. Normaya görə bu texnika 8 saat ərzində 15 hektara toxum səpməlidir. Famil isə işə səhər saat 7-də başlayır, gün batana kimi sahədə olur. Buna görə də gördüyünüz bu 26 hektar sahənin əkinini inşallah bu gün qurtaracağıq.

Mexanizator da, öz növbəsində, mülkiyyətçini tərifləyir, onun torpağı əkinə nümunəvi hazırlamasından ağızdolusu razılıq edir. Sonra da: -İcazənizlə mən işimə davam edim, - deyib MTZ markalı traktorunun kabinəsinə qalxır. Məlum olur ki, burada da çiyidlə birlikdə hər hektar sahəyə 100 kiloqram ammofos gübrəsi verilir.

Öyrənirik ki, Mehdi Ağayevin 26 hektar pambıq əkinindən başqa 13 hektar taxıl, 2 hektar yonca, 5 hektar bostan-tərəvəz sahəsi də var. Qazancı ilə bir neçə texnika da əldə edib. O ki qaldı işçi qüvvəsinə, bu işdə oğlanları Süleyman, İsmayıl, Kamal, Ramal atalarına yaxından kömək göstərirlər. Pambığın becərilməsi dövründə günəmuzd işçilər briqadasının köməyindən də istifadə olunur. Burada "bütün kəndlilər, xüsusilə fermerlər bir-birinə oxşayır" ifadəsi yerinə düşərdi. Onların hər biri istəyir ki, daha çox və daha keyfiyyətli kənd təsərrüfatı məhsulları yetişdirsin, yaxşı qazanc əldə etsin, həm özünə, həm də hamıya faydalı olan işlə məşğul olsun, dövlətinin arxasında dayansın, məhsul bolluğu yaratsın. Bunun üçün dövlət də kənd zəhmətkeşləri üçün gərək olan hər cür şəraiti yaratmışdır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# İşğalçılıq siyasətinin növbəti ifşası

## Ermənistanın dünyanı aldatmağa xidmət edən yalançı manevrlərinə yer qalmayıb

*Əvvəli 1-ci səh.*

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Ermənistanın xarici işlər naziri sözügedən açıqlaması ilə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin üstündən xətt çəkir. Qeyd edib ki, Ermənistan tərəfinin bu kimi destruktiv açıqlaması danışıqlar prosesinə ciddi zərbədir və danışıqları pozur. Bu, eyni zamanda ATƏT-in Minsk qrupunun həmsədrlərinə qarşı hörmətsizlikdir. Ermənistan-Azərbaycan münaqişəsinin Helsinki Yekun Aktının prinsipləri və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında mərhələli şəkildə həll edilməsi və bu mərhələli proses çərçivəsində ilkin addım kimi Azərbaycanın Dağlıq Qarabağ regionu ətrafındakı ərazilərdən Ermənistan qoşunlarının çıxarılması həmsədr ölkələrin dövlət başçıları səviyyəsində verdikləri bəyanatlarında təsbit olunmuşdur. Həmçinin həmsədrlərin 2019-cu ilin 9 mart tarixli bəyanatında da münaqişənin mərhələli həllinə dair mövqe bir daha qeyd olunmuşdur.

Məsələyə diplomatiya, beynəlxalq hüquq kontekstindən yanaşıldıqda aydın olur ki, Ermənistan sözün əsl mənasında küncə sıxışdırılmış vəziyyətdədir və Azərbaycanın apardığı siyasət nəticəsində işğalçı dövlətin Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünyanı aldatmağa xidmət edən yalançı manevrlərinə daha yer qalmayıb. İndi dünya birmənalı şəkildə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını qəbul edir və beynəlxalq hüquq normalarına uyğun olaraq onu zəbt etdiyi əraziləri azad etməyə çağırır. BMT, Avropa Şurası və digər nüfuzlu beynəlxalq təşkilatların qəbul etdikləri müvafiq qətnamələrdə, o cümlədən münaqişənin dinc yolla çözülməsi üçün vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun irəli sürdüyü həll variantlarında da Ermənistanın işğalçı dövlət kimi təqdim olunması düşmən ölkənin diplomatiya müstəvisində artıq nokaut vəziyyətinə düşdüyünü təsdiq edən faktorlardır.

Hikmət Hacıyev deyib ki, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrində Azərbaycana qarşı gücdən istifadə edilməsi pislənilir, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bir daha təsdiq olunur və Ermənistan qoşunlarının dərhal, tam və qeyd-şərtsiz işğal olunmuş ərazilərdən çıxarılması tələb edilir: "Ermənistan bu kimi dağıdıcı açıqlamalarla danışıqlar prosesindən çıxmaq məqsədini güdürsə, onda öz mövqeyini açıq bildirməlidir. ATƏT-in Minsk qrupunun həmsədrləri də Ermənistanın bu kimi dağıdıcı mövqeyini qiymətləndirməli və öz mövqelərini ortaya qoymalıdırlar. Prezident İlham Əliyev tərəfindən bəyan olunduğu kimi, münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi qəti, birmənalı və aydın xarakter daşıyır. Bu mövqe Prezident İlham Əliyev tərəfindən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında və Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistanın baş naziri ilə təşkil edilmiş açıq debatda bir daha qəti şəkildə ifadə olunmuşdur".

Deməli, Ermənistanın danışıqlar prosesində indi çox az vaxtı var. Əgər Ermənistan bu vaxtdan səmərəli istifadə edərək danışıqlarda konstruktiv mövqedən çıxış etməsə, ərazilərimizi işğal altında saxlamaqda davam etsə, onda Azərbaycan əsgəri ilə üz-üzə gəlməsi qaçılmaz olacaq. İşğalçı ölkənin özündə də yaxşı bilirlər ki, müharibənin başlanması təkcə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən qovulması ilə nəticələnməyəcək, eyni zamanda bu dövlətin çöküşünü daha da sürətləndirəcək. Çünki Ermənistanın Azərbaycanla yenidən müharibə aparmağa nə iqtisadi, nə də hərbi gücü var. Bu səbəbdən Azərbaycanın lazım gələrsə Dağlıq Qarabağ münaqişəsinin hərbi müstəvidə çözümünə əl ata biləcəyinə dair fikirlərin səslənməsi Ermənistanda əsl dəhşət kimi qarşılanır.

Ümumi vəziyyətin təhlili həm də onu göstərir ki, Dağlıq Qarabağ münaqişəsinin iştirakçı tərəfləri olan Ermənistan və Azərbaycan arasında kifayət qədər böyük fərqlər mövcuddur. İndi bir tərəfdə güclü, qüdrətli, sürətlə inkişaf edən Azərbaycan durursa, digər tərəfdə çökməkdə olan, cəmiyyətində parçalanmalar yaşanan, idarəçiliyi başqa dövlətlərin əlində olan Ermənistan dayanır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

"AtaSığorta" ASC bildirir ki, 08.04.2020-ci il tarixdən etibarən şirkətin baş ofisi **Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti, 124** ünvanına köçürülmüşdür.

**Əlaqə telefonu: 012 936.**

*Rəhbərlik*

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələrinin təmir-tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması ilə bağlı

### *açıq tender elan edir*

Tender 5 (beş) LOT üzrə keçirilir:

LOT-1 Sabirabad rayonu, Nizami kənd 624 şagird yerlik tam orta məktəbin bərpa-gücləndirmə və əsaslı təmiri üzrə layihə-smeta sənədlərinin hazırlanması

LOT-2 Şəmkir rayonu, Zəyəm Cırdaxan kənd 2 nömrəli 432 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

LOT-3 Qobustan rayonu, Nabur kənd 1 nömrəli 264 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

LOT-4 Quba rayonu, Digah kənd 360 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması

LOT-5 K.Ağayev adına Biləsuvar şəhər Texniki fənlər təmayüllü internat tipli məktəb-liseyin yenidən qurulması üzrə layihə-smeta sənədlərinin hazırlanması

Tender iştirakçılarına təklif edilir ki, www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar hər LOT üzrə 50 (əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Bankın adı:** **"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod:** **805603**
**VÖEN:** **9900001881**
**M/h:** **AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T.** **İBAZAZ 2X**
**H/h:** **AZ88IBAZ38030019441856517211**
**VÖEN:** **1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **13 may 2020-ci il saat 11:00-a** qədər, tender təklifi ilə bank təminatı sənədlərini isə **21 may 2020-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **22 may 2020-ci il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Mərkəzi Bankı

### *kotirovka sorğusu elan edir*

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən koronavirusa (COVID-19) qarşı mühafizə vasitələrinin satın alınması.

Kotirovka sorğusu üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar.

Kotirovka sorğusu üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri ən geci 04 may 2020-ci il saat 18:00-dək əlaqələndirici şəxslər tərəfindən qəbul ediləcək və 05 may 2020-ci il saat 10:00-da Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

Kotirovka sorğuları üzrə əlaqələndirici şəxslər - Elvin Şirdanov, telefon - 493-11- 22 (daxili 428); Zöhrab Səfərəliyev, telefon - 493-11-22 (daxili 101).

*Tender komissiyası*

## "Xalq Həyat" Sığorta Şirkəti ASC səhmdarlarının ümumi yığıncağının çağırılması barədə məlumat

08 iyun 2020-ci il tarixdə "Xalq Həyat" Sığorta Şirkəti ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir. Yığıncağın keçirilməsi Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti 22L ünvanında, saat 15:00-a təyin edilmişdir.

Səhmdarların ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələ daxil edilmişdir:

Cəmiyyətin 2019-cu il üçün maliyyə hesabatlarının təsdiq edilməsi.

**İdarə Heyəti**

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən "Sifarişçinin tərəf kimi iştirak etdiyi məhkəmə işləri üzrə Azərbaycan Respublikasının Ali Məhkəməsində vəkillik fəaliyyətinin müstəsna səlahiyyətində olan xidmətlər istisna olmaqla hüquqi məsləhətlərin verilməsi, vəkil ilə müqavilənin (orderin) bağlanmasının hüquqi müşayiət edilməsinə dair xidmətlər"in satın alınması məqsədilə keçirilmiş kotirovka sorğusunda iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində "BHM hüquq şirkəti" MMC qalib müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

## "Azercell"dən BluTV ilə sevdiyiniz türk filmləri yüksək keyfiyyətdə bir arada

### "Azercell" BluTV xidmətini təqdim edir

Yerli bazarın lider mobil operatoru "Azercell" rəqəmsal məhsullar portfelini genişləndirməyə davam edir. Bu dəfə "Azercell" şirkəti BluTV ilə eksklüziv tərəfdaşlığa imza ataraq son illər ərzində dünyada sürətlə populyarlıq qazanan türk kino və seriallarını abunəçiləri üçün əlçatan edir. Aprel ayının 21-dən başlayaraq "Azercell" BluTV vasitəsilə izləmə rekordları ilə seçilən türk kinematoqrafiyasını, xüsusi olaraq BluTV üçün lentə alınan türk film və seriallarını smartfonlara gətirir.

Xidməti aktiv etmək qaydası çox sadədir: IOS, Android, PC və Smart TV əməliyyat sistemlərini dəstəkləyən BluTV tətbiqini yüklədikdən sonra gündə 0.25 AZN ödəməklə günlük paketi və ya ayda 3 AZN ödəməklə aylıq paketi aktiv etmək mümkündür. Odur ki, xidmətə günlük qoşulmaq üçün Start gun açar sözünü 5550 qısa nömrəsinə göndərmək və ya telefonun ekranında *551#YES yığmaq kifayətdir. Aylıq paketi aktiv etmək üçün isə Start ay açar sözünü 5550 qısa nömrəsinə göndərmək və ya ekranda *554#YES yığmaq lazımdır. Onu da qeyd edək ki, "Azercell"in BluTV xidməti çərçivəsində aylıq abunəliyə ilk dəfə qoşulan müştərilərə xidmətdən 7 günlük pulsuz istifadə imkanı təqdim edilir.

"Azercell"dən BluTV ilə sevdiyiniz seriallar məkandan və zamandan asılı olmayaraq indi smartfonunuzda!

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi Bakı şəhərində Kiçik və Orta Biznesin İnkişafı Mərkəzinin fəaliyyətə başlaması üçün təşkilati işlərin həyata keçirilməsi, mərkəzdə KOB-lara təlim və seminarların keçirilməsi, habelə məsləhət və dəstək xidmətlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarının diqqətinə çatdırılır ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumat əldə edə bilərlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 1000 AZN**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:**
**Təşkilatın adı:** **Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN:** **1603326271**
**Bank rekvizitləri:** **"Kapital Bank" ASC-nin Mərkəzi filialı**
**H/h:** **AZ33AIIB38060019440419716102**
**VÖEN:** **9900003611**
**Kod:** **200026**
**Müxbir hesab:** **AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T.** **AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 19.05.2020-ci il saat 16:00-dək və tender təklifi ilə bağlı bank təminatı sənədlərini 01.06.2020-ci il saat 16:00-dək Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 02.06.2020-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

İddiaçılar E-şərtlər toplusunu 24.04.2020-ci il saat 10:00-dan (elan tarixi günü) sonra əldə edə bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## Ağstafaçay Hidroqovşağı İstismarı İdarəsi

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1 - Cari təmir işləri üçün mal-materialların və ehtiyat hissələrinin satın alınması

İştirak haqqı 100 manatdır.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İddiaçılar öz tender təkliflərində bütün vergi rüsumları və digər xərcləri nəzərə almalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Əlaqələndirici şəxs: Nəsib İbrahim oğlu Yaqubov.**
**Ünvan: Ağstafa şəhər, Heydər Əliyev küçəsi, 4**
**Ağstafaçay HQİİ**
**VÖEN: 3600080771**
**Bank rekvizitləri:**
**H/h: AZ85AII32051019445200201152**
**VÖEN: 3600068011**
**Bank: "Kapital Bank"ın Ağstafa filialı**
**Kodu: 200521**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T.BİK - AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununauyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **14.05.2020-ci il saat 12:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **22.05.2020-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **27.05.2020-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

E-şərtlər toplusunu 24.04.2020-ci il tarixdən sonra əldə etmək olar.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Elman Məmmədov, Bəxtiyar Əliyev və İmamverdi İsmayılov Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova atası
**İMRAN ƏZİZOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

KİVDF-nin rəhbərliyi və kollektivi Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova atası
**İMRAN ƏZİZOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Suraxanı Rayon Məhkəməsinin kollektivi Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova atası
**İMRAN MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova atası
**İMRAN MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin kollektivi mərkəzin icraçı direktoru Vüsal Qasımlıya anası
**YAQUT XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tahir, Mahir, Mais Səfərovlar Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova atası
**İMRAN ƏZİZOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Mütəxəssis təhlilləri şöbəsinin baş məsləhətçisi
**NAZİM MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin Ümumi iqtisad fakültəsinin 1984-cü il buraxılışlı 932-ci qrupunun məzunları ailələri ilə birlikdə qrup yoldaşları Əlisahib Rizvanova anası
**ADİLƏ XANIMIN**
Göyçay rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəkir Əhmədov, Seyidhəsən Ağazadə, Mobil, Rafiq və Mehman Hüseynovlar ailələri ilə birlikdə Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova atası
**İMRAN MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7375
Sifariş 931
Qiyməti 40 qəpik